# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 dekabr 2025-ci il, cümə axşamı
№ 226 (7053)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Bakı-Bratislava münasibətləri: dinamizm, əməkdaşlıq və mühüm perspektivlər

## İki ölkə arasında bir çox sahələrdə tərəfdaşlıq əlaqələri güclənə bilər



Bax səh. 2

## Dost ölkələrin humanitar diplomatiyası

Bax səh. 3



## Qarabağ və Şərqi Zəngəzur: Şəhərsalmada tərəqqi nümunəsi

Bax səh. 4

## Yeni “siyasi gündəlik”, yoxsa köhnə musiqi “yeni aranjimanda”?

Bax səh. 3



## Mərkəzi Bank uçot dərəcəsini niyə azaltdı?

Bax səh. 4

## Vətənpərvərliyin qüdrəti...

Bax səh. 7

## Paşinyan Almaniyada...

Bax səh. 5

## ... Bir qab yal üçün sümsünən küçük

Bax səh. 5

## Böyük Britaniya sanksiyaları genişləndirir

Bax səh. 6



## Dondurulmuş Rusiya aktivlərinin müəmmalı taleyi...

Bax səh. 6



## Aİ səhvini düzəldəcəkmi?

Bax səh. 5

# Qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsi...

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa



Hörmətli cənab Prezident.

Səmimi məktubunuza görə Sizə dərin təşəkkürümü bildirirəm. Xoş sözlərinizi, sülh və sabitlik naminə səylərimizə dair fikirlərinizi yüksək qiymətləndirirəm.

Münaqişələrin həllinə davamlı sadiqliyiniz, dialoqun irəlilədilməsində şəxsi iştirakınız və dünyanın müxtəlif bölgələrində gərginliyin azalmasına verdiyiniz töhfələr qəti inamıma görə, Nobel Sülh Mükafatı da daxil olmaqla, ən yüksək beynəlxalq tanınmaya tam layiqdir. Sizin qətiyyəti və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir.

Əminəm ki, davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcəkdir.

Məktubunuzda ifadə olunan qarşılıqlı hörmət ruhuna və diqqətinizə görə səmimi minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.

Dərin hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

# Ölkəmizdə kənd təsərrüfatının geniş potensialı var

## İlham Əliyev “John Deere” şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da “John Deere” şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidenti, “John Deere Walldorf International” MMC-nin Baş icraçı direktoru Ksaba Leykonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda kənd təsərrüfatının geniş potensialının olduğu vurğulanaraq, bu sahənin inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlər qeyd olundu.

“John Deere” şirkətinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini deyən qonaq əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi, Azərbaycanda pambıqçılıq sənayesi ilə bağlı irəli sürdükləri layihə barədə məlumat verdi.

Ksaba Leykon Bakıda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığını dedi.

Görüşdə Azərbaycanla şirkət arasında əməkdaşlığın perspektivləri müzakirə olundu, təhsil və təlim mərkəzinin yaradılması, qarşılıqlı təcrübə, suvarma, logistika, pambıq və taxıl istehsalı dəyər zəncirinin rəqəmsallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1837-ci ildə ABŞ-da qurulmuş “John Deere” kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı ilə məşğul olan qlobal miqyasda aparıcı şirkətlərdən biridir. Şirkətin əsas fəaliyyət sahələrinə traktor, kombayn, pambıqyığan maşınların istehsalı daxildir. Ötən il ümumi gəliri 52 milyard ABŞ dollarına yaxın olan “John Deere”in 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

# Əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var

## Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan üzrə ticarət elçisi İlham Əliyevin qəbulunda



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Lord Olderdays Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında razılaşmaların əldə olunmasının tarixi əhəmiyyətinə toxunaraq, bu məsələdə Prezident Donald Trampın rolunu xüsusi vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyinin təşəbbüskarı kimi onun irəli aparılması üçün bundan sonra da səylərini davam etdirəcəyini bildirdi və sülh şəraitinin regionun iqtisadi potensialının inkişafına töhfəsinə toxundu.

Prezident İlham Əliyev Azərbaycanla bp şirkəti arasında 30 ildən artıq davam edən uğurlu əməkdaşlığı qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, müdafiə sənayesi, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edildi. İkitərəfli əlaqələrimizin dərinləşdirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunuldu.

Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və quruculuq işlərində iştirak etməklə bu məsələyə töhfəsi məmnunluqla qeyd olundu.

# Bakı-Bratislava münasibətləri: dinamizm, əməkdaşlıq və mühüm perspektivlər

## İki ölkə arasında bir çox sahələrdə tərəfdaşlıq əlaqələri güclənə bilər



Azərbaycan dövlətinin yürütdüyü uğurlu xarici siyasət kursu, eləcə də əməkdaşlığa və inkişafa hədəflənən prioritetlərimiz beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Xüsusilə, regional güc statusu, qlobal enerji təhlükəsizliyinə verdiyimiz töhfələr və sülhpərvər siyasətimiz ölkəmizi etibarlı tərəfdaş kimi ön plana çıxarır. Azərbaycan əməkdaşlığa yönəlmiş xarici siyasəti sayəsində müxtəlif qitələrdə yerləşən dövlətlərlə strateji əlaqələr qurmağa nail olub. Xüsusilə, enerji sektorunda apardığı ardıcıl və məsuliyyətli siyasət ölkəmizin nüfuzunu daha da artırıb. Azərbaycan enerji bazarında heç vaxt qeyri-müəyyənlik yaradacaq addım atmayıb - qarşılıqlı maraqlar hər zaman əsas tutulub. Bu, bizi Avropa üçün vazkeçilməz tərəfdaşlardan birinə çevirən əsas faktorlardandır.

Təsadüfi deyil ki, bu gün Avropa İttifaqı ölkələrinin Azərbaycanla əməkdaşlıq xətti, xüsusilə təbii qaz və yaşıl enerji sahələrində daha da güclənir. Avropanın enerji şaxələndirməsinə ehtiyacının artdığı dövrdə Azərbaycan etibarlı mənbə kimi ön plana çıxır. Bakı-Brüssel enerji dialoqu çərçivəsində imzalanmış sazişlər, Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı aparılan işlər, yeni xətlərin hazırlanmasına həsr edilmiş müzakirələr bu əməkdaşlığın uzunmüddətli olacağını göstərir.

Belə bir qarşılıqlı münasibətlərin inkişaf dinamizmi ikitərəfli əlaqələrin güclənməsinə də rəvac verir - məsələn, Slovakiya-Azərbaycan əlaqələri artıq yeni məzmun qazanmaqdadır. Slovakiyanın Cənub Qaz Dəhlizinin final istifadəçilərindən biri kimi Azərbaycana olan marağı günü-gündən artır. Ölkəmizin enerji təhlükəsizliyinə verdiyi strateji dəstək Slovakiya tərəfindən yüksək qiymətləndirilir. Bununla yanaşı, iki ölkə arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq üçün də geniş imkanlar mövcuddur. Əlaqələr hələ tam potensialını reallaşdırmasa da, qarşıdakı illər üçün böyük perspektivlər formalaşır. Xüsusilə Slovakiyanın işğaldan azad edilmiş Qarabağ bölgəsində - Ağdamın Qərvənd kəndində həyata keçirdiyi layihələr, müdafiə sahəsində əməkdaşlıq perspektivləri bu münasibətlərin yalnız enerji sahəsi ilə məhdudlaşmadığını göstərir.

### Azərbaycan-Slovakiya əlaqələrinin tarixi

Qeyd edək ki, Slovakiya Respublikası Azərbaycanın müstəqilliyini 24 yanvar 1992-ci ildə tanısa da, iki ölkə arasında diplomatik münasibətlər 23 noyabr 1993-cü ildə qurulub. 2019-cu ildən Slovakiyanın Azərbaycanda səfirliyi fəaliyyət göstərir. 2023-cü ilin iyulundan isə Azərbaycanın Slovakiyada səfirliyi təsis olunub. 2009-cu ildən Azərbaycanın Slovakiyadakı fəxri konsulluğu fəaliyyət göstərir.

Rəsmi şəxslərin qarşılıqlı səfərlərinə gəldikdə isə Prezident İlham Əliyev 2004-cü ilin martında Bratislavada işgüzar səfərdə olub. Slovakiyanın hazırkı Prezidenti Peter Pelleqrini 2018-ci ilin noyabrında Baş nazir statusunda Bakıya səfər edib. Hazırkı Baş nazir Robert Fitso isə 2024-cü ilin mayında Azərbaycanda rəsmi səfərdə olub.

İki ölkə arasında parlamentlərarası səviyyədə də işgüzar münasibətlər mövcuddur. Azərbaycanın Milli Məclisində 2005-ci ildən etibarən Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Slovakiyanın Parlamentində də analoji işçi qrupu fəaliyyət göstərir. 2021-ci ilin oktyabrında Bakıda imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş”ə əsasən İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Slovakiya Birgə İşçi Qrupu təsis edilib.

Ötən ilin mayında Baş nazir Robert Fitsonun Bakıya səfəri çərçivəsində iki ölkə arasında “Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə”ni imzalanıb. Bundan başqa, “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş”lər də imzalanıb.

İki ölkə arasında iqtisadi əlaqələr geniş olmasa da, Slovakiya şirkətləri Azərbaycan iqtisadiyyatına investisiya yatırmaqda maraqlıdırlar. Eyni zamanda, Azərbaycan iş adamlarının da Slovakiyaya investisiya qoyması önəmli istiqamətlərdən biri olaraq qalır. 2024-cü ildə Azərbaycan və Slovakiya arasında ticarət dövriyyəsi 46 milyon dollar olub. Mütəxəssislər isə real potensialın daha yüksək olması fikrindədirlər. Bu, ölkələrimiz arasında iqtisadi əlaqələrin dərinləşməsi, ticarət dövriyyəsinin artırılması üçün imkanlar yaradır. Slovakiya bazarı Azərbaycan üçün qeyri-neft ixracının artırılması baxımından da əhəmiyyətli ola bilər. Eləcə də, turizm sahəsi üzrə əməkdaşlıq gələcək perspektivdə mühüm əhəmiyyət daşıya bilər.

Əməkdaşlıq perspektiv olan digər sahə isə müdafiə sənayesi sahəsidir. Bu istiqamətdə birgə layihələrə imza atılması mümkündür - bununla bağlı müzakirələr belə reallaşıb.



Qeyd edək ki, Slovakiya Ermənistan - Azərbaycan münaqişəsinin həllində beynəlxalq hüquqa əsaslanan yanaşmanı dəstəkləyib. Bu, münasibətlərdə qarşılıqlı etimad mühitinin güclənməsinə şərait yaradıb. 44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni vəziyyət Bratislava tərəfindən diqqətlə izlənilir və Slovakiya Azərbaycanla əməkdaşlığı daha da genişləndirməyə maraqlı olduğunu açıq şəkildə bildirir.

### Münasibətlərdə enerji faktoru

Enerji sektoru Azərbaycan-Slovakiya münasibətlərinin ən mühüm istiqamətlərindən biridir. Avropa İttifaqının enerji təhlükəsizliyi məsələsində fəal iştirak edən Azərbaycan Cənub Qaz Dəhlizinin əsas təchizatçısı kimi mühüm tərəfdaşa çevrilib. Slovakiya da enerji şaxələndirməsinə ehtiyacı olan ölkələr sırasında olduğundan, Azərbaycanla əməkdaşlıq xüsusi rol oynayır. Qeyd edək ki, Slovakiya uzun illər qaz təchizatında asılılıqlar səbəbindən enerji təhlükəsizliyi məsələlərini prioritet mövzusuna çevirib. 2022-ci ildən sonra Avropada baş verən geosiyasi dəyişikliklər qaz mənbələrinin dəyişikliyini zəruri edib. Bu dövrdə Azərbaycan Avropa üçün etibarlı və sabit təchizatçı kimi önə çıxıb. Avropaya qaz tədarükünün 2027-ci ilə qədər iki dəfə artırılması planları Slovakiya üçün də yeni imkanlar yaradır. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin Bratislavaya rəsmi səfəri çərçivəsində keçirilən geniş tərkibdə görüşdə çıxış edən Slovakiyanın dövlət başçısı Peter Pelleqri bildirib ki, enerji təchizatı ilə bağlı Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb: “Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər”.

Bunun qarşılığında isə Prezident İlham Əliyev bildirib ki, ötən il biz Slovakiyaya qaz təchizatına başladıq: “İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq”.

Gələcəkdə Azərbaycan-Slovakiya enerji əməkdaşlığının yalnız qazla məhdudlaşmayacağı da proqnozlaşdırılır - “Yaşıl enerji” sahəsində Azərbaycanın böyük potensialı bu əməkdaşlığı daha da genişləndirə bilər. Beləliklə, enerji sektoru iki ölkə arasında əməkdaşlığın lokomotivi rolunu oynayır və yaxın illərdə bu sahədə daha dərin inteqrasiya gözlənilir.

### Əlaqələr dərinləşir...

Beləliklə, Azərbaycan - Slovakiya münasibətləri həm siyasi, həm iqtisadi, həm də humanitar müstəvidə yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu əlaqələrin əsas üstünlüyü qarşılıqlı hörmət, açıq dialoq və real əməkdaşlıq iradəsinə əsaslanmasıdır. Slovakiyanın Ağdamın Qərvənd kəndində həyata keçirdiyi bərpa layihəsi münasibətlərin humanitar ölçüsünü daha da dərinləşdirir. Bu təşəbbüs həm də Avropada Qarabağın bərpası ilə bağlı pozitiv yanaşmanın formalaşmasına töhfə verir. İki ölkə arasında mədəniyyət, təhsil, ticarət, kənd təsərrüfatı və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli şərait var. Slovakiya şirkətlərinin Azərbaycanda iştirak imkanları, eləcə də Azərbaycanın tranzit və logistika potensialı qarşılıqlı maraqları artırır.

***P.SADAYOĞLU***

# Dost ölkələrin humanitar diplomatiyası

## Heydər Əliyev Fondu ilə Türkmənistanın Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu arasında imzalanan anlaşma memorandumuna əsasən birgə layihələr həyata keçiriləcək

Bu günlərdə Heydər Əliyev Fondu ilə Türkmənistanın Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu arasında anlaşma memorandumu imzalanıb.

Memorandumu Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva imzalayıblar.

Qeyd olunub ki, uzunmüddətli və səmərəli əməkdaşlığın təməlini qoyan sənəd, eyni zamanda, müxtəlif sahələrdə gələcək birgə layihələrin həyata keçirilməsinə yönəlib.



### Heydər Əliyev Fondunun genişlənən beynəlxalq əlaqələri

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xoş mərama əsaslanmaqla respublikamızda və ölkə hüdudlarından kənarda reallaşdırdığı xeyriyyəçilik, humanitar-mədəni təyinatlı layihələr quruma bütün dünyada böyük nüfuz qazandırıb. Bunun nəticəsidir ki, Fondun beynəlxalq əlaqələri getdikcə genişlənir. Mehriban xanım Əliyeva təqdirəlayiq  missiya yerinə yetirir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkə daxilində tarixi mədəniyyət abidələrinin qorunmasını əhatə edən çoxsaylı layihələr reallaşdırır. Fond tərəfindən belə layihələr həmçinin ölkə hüdudlarından kənarda da həyata keçirilir. Məsələn, fond tərəfindən Bolqarıstanın Veliko-Tırnovo şəhərindəki "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası həyata keçirilib. Qoruğun bərpadan sonra açılışı 23 sentyabr 2016-cı il tarixində Bolqarıstanın Baş nazirinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə baş tutub.

Heydər Əliyev Fondu tərəfindən Vatikanda reallaşdırılan layihələrin sayı da çoxdur. Bunlardan Müqəddəs Marçellinio və Pietro katakombalarının, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin,  Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsinin, "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpasını misal göstərə bilərik. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi Heydər Əliyev Fondunun bəşəri missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir. Mehriban xanım Əliyevanın bir qədər bundan əvvəl Vatikana uğurlu səfəri və bu səfər çərçivəsində baş tutan tədbirlər çox doğru olaraq mədəniyyətlərarası anlaşmanın və humanitar diplomatiyanın parlaq simvolu kimi dəyərləndirlir.

Bu gün yüksək səviyyədə olan Azərbaycan - UNESCO, Azərbaycan - İSESCO əməkdaşlıq əlaqələrinin genişlənməsində də Heydər Əliyev Fondunun mühüm rol oynadığını ayrıca qeyd etmək lazımdır. İndiyədək Fondun dəstəyi ilə ölkəmiz hər iki qurumun ayrı-ayrı tədbirlərinə böyük uğurla ev sahibliyi edib. Son olaraq respublikamızda elə bu günlərdə Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı baş tutub. Konfrans çərçivəsində Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş imzalanıb.

Dost Türkmənistanı təmsil edən Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu 2021-ci ildə yaradılıb. Qurumun əsas məqsədi gənc nəslə dəstək olmaq, onların yaşayışı üçün münbit şərait yaratmaq, qayğıya ehtiyacı olan uşaqların sağlamlığının bərpasına kömək etməkdir. Bu günə qədər Fondun vəsaiti hesabına Türkmənistanda və digər ölkələrdə bir çox xeyriyyə və humanitar layihələr həyata keçirilib. Fondun humanizm, ədalət və xoşməramlı prinsiplərə söykənən fəaliyyəti, həmçinin dövlət tərəfindən dəstəklənir. Fond humanitar missiyasını beynəlxalq səviyyədə də həyata keçirir. BMT-nin Uşaq Fondu UNICEF

### Humanitar, sosial və təhsil sahəsində reallaşdırılan layihələr

ilə əməkdaşlıq edən Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu tərəfindən bugünə qədər Türkiyə, Ukrayna, Rusiya, Əfqanıstan, Tacikistan və Fələstində fövqəladə və təbii fəlakətlərdən zərər çəkmiş uşaqlara humanitar yardımlar da göndərilib.

Türkmənbaşıda imzalanan sənədlə təsbit olunmuş hədəflər tərəflərin gələcəkdə birgə səmərəli fəaliyyətinə imkan yaradacaq. Memorandumun imzalanması mərasimində baş tutan görüş zamanı sosial və təhsil sahələrində əməkdaşlıq, eyni zamanda, mədəniyyət və incəsənət üzrə layihələrin əhəmiyyəti vurğulanıb.

Görüşdə Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə bir sıra ölkələrdə uğurla sərgiləndiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının bəhrəsi olan MAMA "Ana təbiət" incəsənət layihəsinə 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində start verilib. Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə konseptual şəkildə hazırlanmış sərgi təbiəti passiv bir fon kimi deyil, əksinə, canlı, qidalandırıcı, davamlı və bərpaedici əsas qəhrəman kimi təqdim edir.

Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bakı, Manama, Roma, London, Tbilisi və Berlində uğurla təqdim olunub. MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 31 ölkədən - ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digərlərindən fərqli sənətkarları bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır.

Görüşdə hazırda sərginin Türkmənistanda da nümayiş olunması məsələsi üzərində əməkdaşlıq edildiyi bildirilib. Qeyd olunub ki, bu beynəlxalq layihə mədəni mübadilə və ətraf mühitin qorunması mövzusuna diqqət çəkmək üçün vacib bir platforma olacaq.

***Mübariz ABDULLAYEV***

# Yeni "siyasi gündəlik", yoxsa köhnə musiqi "yeni aranjimanda"?

Azərbaycanın postmüharibə dövründə Cənubi Qafqazda yaratdığı reallıqlar sabitlik, sülh və inkişaf üçün mühüm zəmin formalaşdırır. Bakı sülhpərvər mövqedən çıxış edərək ümumilikdə regionun gələcəyini əməkdaşlıq və tərəfdaşlıq müstəvisində qurmağa səy göstərir. 2022-ci ildən irəli sürülən sülh təşəbbüsləri də, bu ilin avqustunda Vaşinqtonda paraflanan sülh sazişi layihəsi də regionun dinc gələcəyi üçün müəyyənləşdirilmiş meyarlardır.



## Ermənistan Aİ-nin kölgəsində nə etmək istəyir?

Azərbaycan qalib dövlət olsa da, bütövlükdə regionun maraqlarını üstün tutur - biz 30 ilə yaxın davam etmiş konfliktin tam şəkildə aradan qaldırılması, ərazi iddialarının geri götürülməsi, əvəzində isə dinc qonşuluq münasibətləri çərçivəsində yaşanması üçün addımlar atırıq.

Təəssüfləndirici haldır ki, qarşı tərəfdən analoji münasibət görünmür. Daha doğrusu, Ermənistan dildə sülh prosesinə sadiq olduğunu, əbədi sabitliyin formalaşması üçün səy göstərdiyini desə də, əməldə onu təsdiqləmir. Belə ki, İrəvanın bir çox addımları birmənalı qarşılana bilməz - Bakı ilə aparılan danışıqlarda, imzalanan sənədlərdə tamam fərqli rakurslardan yanaşma ortaya qoyan Ermənistan başqa qurumlarla müzakirələrdə tamam fərqli "tezislərə" söykənir. Bunun bariz nümunəsi Avropa İttifaqı və Ermənistan arasında imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədidir.

### Çətir "dəyişikliyi"...

Qeyd edək ki, dekabrın 2-də Ermənistan və Avropa İttifaqı yeni "Aİ-Ermənistan Strateji Tərəfdaşlıq Gündəliyi"ni qəbul ediblər. Bu sənəd Ermənistanla 27 ölkə arasında əməkdaşlığı dərinləşdirməyi hədəfləyir və 2017-ci ildə qəbul edilmiş İkitərəfli Tərəfdaşlıq Prioritetlərini əvəzləyəcək. Sənəd haqqında danışarkən bildirirlər ki, guya sənəd "qarşıdakı illər üçün ortaq bir vizyonu müəyyən edir və Ermənistanın Avropa Birliyi ilə əlaqələrini gücləndirmək istəyinə cavab verir". İddia olunur ki, yeni tərəfdaşlıq gündəliyi "demokratiya və qanunun aliliyi", "ədalət islahatı", "insan hüquqları", "sosial-iqtisadi inkişaf", "enerji təhlükəsizliyi", "rəqəmsal transformasiya", "ticarətin şaxələndirilməsi" və "təhlükəsizlik və müdafiə əməkdaşlığı" sahələrini əhatə edir. Gündəm qısamüddətli (üç-dörd il) və ortamüddətli (yeddi il) prioritetləri müəyyən edir - birinci mərhələ, yəni 2024-2027-ci illər üçün 270 milyon avro büdcə nəzərdə tutulur. Bunun 200 milyon avrosu qrant yardımı, 70 milyon avrosu isə investisiya cəlb etmək üçün qrant maliyyələşdirməsidir.

2 dekabrda Brüsseldə keçirilən yekun mətbuat konfransında Kallas Brüsselin "sülhü dəstəkləmək və Ermənistanın dayanıqlığını gücləndirmək" üçün 15 milyon avro ayıracağını elan etdi. Əslində isə bu vəsait Ermənistanın silahlandırılması üçün ayrılacaq maliyyə dəstəyidir. Sənəddə ayrıca olaraq sülhü və regionun gələcək sabit inkişafını təhdid edən daha başqa məqamlar da yer alır.

### Aİ beynəlxalq hüququ pozur...

Yeri gəlmişkən, Azərbaycan XİN Avropa İttifaqı və Ermənistan arasında imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədinə dair şərh yayıb. Şərhdə bildirilir ik, insanlıq əleyhinə cinayətlərdə, hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd olunması və onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyənəşdirilməsi reallıqların ciddi şəkildə təhrif edilməsidir və qəbulolunmazdır.

Göründüyü kimi, Ermənistan yenə də manipulyasiya ilə məşğuldur. Qeyd edilən şəxslərin konkret cinayətlərdə şübhəli bilinməsi. Onlara qarşı Cinayət Məcəlləsinin müvafiq bəndlərinə əsasən cinayət işi açılması və araşdırmaların aparılması, məhkəmə prosesinin reallaşdırılması Azərbaycanın həm ölkə qanunvericiliyinə, həm də beynəlxalq hüquqa hörmətidir. Ermənistanın və Aİ-nin bu şəxsləri xüsusi "statusda" təqdim etmək cəhdi isə tamam fərqli maraqlardan xəbər yerir. Bu onu göstərir ki, Ermənistan yenə də özünün köhə ənənəsindən əl çəkməyib - onlar yenə də alt qatda fərqli "macəralar" axtarışındadırlar. Bu bir daha onu təsdiqləyir ki. Azərbaycan Ermənistan Konstitusiyasındakı müvafiq dəyişiklik tələbində haqlıdır - Ermənistana güvən yoxdur, sabah hətta imzaladığı sülhü belə dana bilər. Necə ki, konkret cinayətdə ittiham olunan şəxslər haqqında fərqli bir görüntü yaratmağa çalışdığı kimi...

Aİ-yə gəldikdə isə, gündəlikdə bu kimi məqamların yer alması bir daha belə bir mənzərə formalaşdırır ki, Brüssel sabitliyi və sülhü deyil, qarşıdurmaların yenidən cücərməsini təşviq edir. Müharibə cinayətləri törətməkdə ittiham olunan şəxslərin fərqli obrazda təqdimatı ilk növbədə Aİ-nin beynəlxalq hüquqa qarşı hörmətsizliyidir. Digər tərəfdən, Aİ bu addımı ilə aparılan məhkəməyə təzyiq göstərməyə çalışır ki, bu da yolverilməzdir.




### Ermənistan öhdəliklərindən boyun qaçırır?

Azərbaycan XİN-in şərhində bildirilir ki, Aİ-Ermənistan sənədində Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaların əks olunmasına baxmayaraq, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət daşıyan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə də istinad edilməməsi ciddi narahatlıq doğurur. Bu hal Ermənistanın Vaşinqtonda Baş nazir tərəfindən imzalanmış TRIPP sazişi çərçivəsində öhdəlikləri icra etmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaradır.

Halbuki Ermənistan bu ilin avqustunda Vaşinqton şəhərində keçirilmiş üçtərəfli görüşün nəticələrinə dair Birgə Bəyannamənin 4-cü bəndində ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəyini, bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətini öz imzası ilə təsdiqləyib.  Paralel olaraq, Azərbaycanla birgə sülh sazişinin layihəsini paraflayıb. Ermənistan bundan sonrakı dövrdə atacağı addımları, aparacağı siyasəti və istiqamətləri sülh şəraitinə, sülh şərtlərinə, bölgənin gələcək inkişaf prioritetlərinə uyğunlaşdırmalıdır. Rəsmi İrəvanın əməkdaşlıq çərçivəsi sülhün şərtlərini və ya bölgənin stabilliyini təhdid etməməlidir - əksinə, əməkdaşlıqlar bölgədə qarşılıqlı münasibətlərin daha da güclənməsini  təşviq etməlidir.

İndiki halda isə bu tezislər imzalanan "gündəlikdə" görünmür.  Bu isə o deməkdir ki, ya Ermənistan sülh sazişinin imzalanmasını yenidən fərqli bəhanələrlə uzatmağa çalışır, ya da, regionda hansısa yeni situasiyanın formalaşmasını "arzulayır". Hər iki halda ziyan çəkən tərəf Ermənistan olacaq - İrəvan yenidən hansısa revanşa "əl atarsa", böyük peşmanlıq çəkər. Sülh prosesinin süni şəkildə uzadılması isə bu ölkəni ən azından yenidən regional laiyhələrdən kənarda qalmasını şərtləndirər...

### Aİ Ermənistanı silahlandırır - missiyanın "missiyası" bitmədimi?

Azərbaycan XİN-in şərhində həmçinin bildirilir ki, Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, ölkəmizə qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı müşahidə missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir.

Şərhdə, həmçinin qeyd olunub: "Prioritetlər sırasında qeyd edilənlərlə yanaşı, hərbi və müdafiə məsələlərinin vurğulanması Ermənistanın hərbiləşməsinə xidmət göstərir. Yuxarıda qeyd olunan məsələlər avqustun 8-dən etibarən postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərini yenidən gündəmə gətirir və Ermənistanın niyyətləri barədə ciddi şübhələr yaradır. Ermənistan və Aİ-nin mövcud reallıqları əks etdirməyən bu zərərli müddəaların aradan qaldırılması istiqamətində konkret addımlar atacağını gözləyirik. Öz növbəmizdə vəziyyəti diqqətlə izləməyə davam edəcək və zəruri nəticələr çıxaracağıq".

Paraflanan sülh sazişində imzalanan bəndə əsasən, həm də Aİ-nin bölgədəki missiyasının fəaliyyətinin dayandırılmasına razılıq verən Ermənistan necə olur ki, yeni "gündəlikdə" fərqli düşüncələrə düşür - bu onu göstərir ki, İrəvan yenidən ikili oyunlar oynamağa çalışır. Bölgədə hər hansı bir konfrantasiya olmadığı üçün Aİ missiyasına da ehtiyacın qalmadığı faktdır - bu mənada, Ermənistanın və Aİ-nin bu istiqamətdə "əməkdaşlıq" perspektivinin həmin sənəddə yer alması qaranlıq niyyətlərdən xəbər verir. Brüsselin "sülhü dəstəkləmək" adı altında Ermənistanın silahlanmasına pul ayırması da bu deyilənləri təsdiqləyir. Beləliklə, bütün dünyanın yaxın zamanda sülh gözlədiyi halda İrəvanın Brüssellə bu formatda və məzmunda sənəd imzalanması xoşagələn hal deyl - ən azından Ermənistan üçün xoşagələn gələcək vəd etmir...

***P.İSMAYILOV***

# Qarabağ və Şərqi Zəngəzur: Şəhərsalmada tərəqqi nümunəsi

## Azad ərazilərin bərpasında texnoloji innovasiyalardan geniş istifadə olunur

Azərbaycan dövləti torpaqlarımız erməni işğalından azad edildikdən sonra dərhal nəhəng bərpa və quruculuq işlərinə start verdi və ötən 5 ildən artıq müddətdə Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş iri nəqliyyat, rabitə, kommunikasiya, sosial infrastrukturlar yaradıldı, şəhər, qəsəbə və kəndlər salındı. Hazırda yeni mərhələyə daxil olan bu quruculuq tədbirləri sayəsində Böyük Qayıdışın ən ümdə hədəfi olan minlərlə insanın öz doğma yurduna geridönüşü təmin edilməkdədir.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi və inzibati reinteqrasiyasını sürətləndirmək məqsədilə ölkənin inzibati ərazi quruluşunda dəyişikliklər edilərək Mərkəzi Ağdərə şəhəri olmaqla Ağdərə rayonu (ərazisi: 1660,83 kv.km) yaradıldı. Eyni zamanda Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə dəyişikliklər aparıldı, bəzi kəndlərin inzibati tabeliyi faktiki yerləşdikləri rayonlara uyğunlaşdırılıb.

Torpaqların işğaldan azad edilməsindən cəmi 2 il sonra ilk köç Zəngilanın Ağalı kəndinə baş tutdu. “Ağıllı kənd” konsepsiyasını özündə ehtiva edən bu yaşayış məntəqəsi ən son innovativ həllərdən istifadə olunmaqla ən yüksək səmərəlilik meyarları ilə inşa edildi. Kəndin enerji təminatının dayanıqlığının təmin edilməsi üçün Həkəri çayı üzərində hər biri 212 kVt olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed Turbini tipli su elektrik stansiyası inşat edilib. Əlavə olaraq, inzibati binaların üzərində qoyuluş gücü 325 kVt olan fotovoltaik günəş panelləri yerləşdirilib.

### Yol-nəqliyyat, enerji-rabitə, kommunal infrastrukturlar...

“Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili” prioriteti üzrə 60 min hektardan çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Zəruri müdafiə strukturlarının yaradılması, təhlükəsizlik məqsədilə yeni hərbi infrastrukturların qurulması təmin edilib, Laçın dövlət sərhədinin buraxılış məntəqəsində “Laçın” gömrük postu qurulub. Zəruri kommunal və sosial infrastrukturların qurulması istiqamətində də xeyli iş görülüb. Ərazilərin elektrik enerjisi ilə təchizatı üçün cəmi 400 km-ə yaxın 110 kv-luq və 330 kv-luq elektrik verilişi xətləri çəkilib. Poçt və telekommunikasiya xidmətləri infrastrukturunun qurulması məqsədilə bir neçə yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib, 1 ədəd radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin edilib. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11-dən çox yeni baza stansiyası quraşdırılıb.

Dövlət proqramı çərçivəsində zəruri yol-nəqliyyat infrastrukturların inşası da sürətlə davam etdirilməkdədir. Həmin nəhəng infrastrukturlardan biri - Zəngəzur dəhlizinin ən mühüm qovşaqlarından olan Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 85 faizə yaxını yerinə yetirilib. Eləcə də, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd,Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib.



### Ən hündür zirvədə hava limanı

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri sırasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. 2021-ci il oktyabrın 26-da istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı azad ərazilərdə inşa edilmiş ilk hava limanı kimi təkcə nəqliyyat qovşağı deyil, həm də Qarabağ regionunun əlçatanlıq, inteqrasiya və inkişaf simvoluna çevrilib. Hava limanı Zəfər Yolunun qapısı və Şuşa şəhərinə gedən əsas nəqliyyat qovşaqlarının açarıdır. Torpaqlarımız işğaldan azad edildkdən cəmi bir il sonra istifadəyə verilən liman beynəlxalq status və IATA kodu (FZL) alıb. Füzuli aeroportu dünyada ən sürətlə tikilən hava limanlarından biri kimi tarixə düşüb.

2022-ci il oktyabrın 20-də açılışı edilən Şərqi Zəngəzurun hava qapısı hesab olunan Zəngilan Beynəlxalq Hava Limanı azad ərazilərdə ikinci nəhəng nəqliyyat infrastrukturu olmaqla, Şərqi Zəngəzurun mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Liman Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Cari il mayın 28-də istifadəyə verilən Laçın Beynəlxalq Hava Limanı isə Azərbaycanın dəniz səviyyəsindən ən hündür zirvəsində yerləşən möhtəşəm nəqliyyat abidəsi sayıla bilər. Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib.

### Ən son innovativ yanaşmalar tətbiq olunur

Azad ərazilərdə inşa edilən yaşayış məntəqələri və inzibati binalar, sosial obyektlərdə isidilmə xərclərini və istixana qazlarının emissiyasını azaltmaq məqsədilə kombinə edilmiş istilik sistemi, odun və briket ilə işləyən mətbəx sobası və yüksək səmərəli elektrod boyler, digər tərəfdən suyun isidilməsi üçün yaşayış evlərinin üzərində günəş kollektorları quraşdırılır. “Ağıllı kənd”də evlərin xarici divarlarının tikintisində termobloklardan, tavan və döşəmələrin tikintisində xüsusi izolyasiya materiallarından istifadə edilib. İzolyasiyalı evlər sayəsində istilik itkisi və enerji istehlakı əhəmiyyətli dərəcədə azaldılıb. Kəndlərdə yüksək sürətli GPON tipli internet şəbəkəsi mövcuddur. Bu texnologiya vasitəsilə sürətli internet, telefon və İP TV xidmətləri təmin edilir. Əlavə olaraq, ərazidə “ağıllı” videomüşahidə kameraları, LCD məlumat lövhələri, audio məlumatlandırıcı anons sistemi, Wi-Fi və avtomatik meteo müşahidə stansiyası olan çoxfunksiyalı işıq dirəkləri quraşdırılıb.

Ağalı kəndinə tətbiq edilən yanaşma faktiki olaraq digər yaşayış məntəqələrinin bərpası üçün etalon rolu oynayır. Şəhərlərin planlaması müasir texnologiyalar və urbanistik meyarlar nəzərə alınmaqla hazırlanır. Onlar “ağıllı şəhər”, “yaşıl enerji”, “ekoloji balans” və “təhlükəsizlik” prinsipləri əsasında qurulur. Şəhərlər yaşayış zonaları, sosial obyektlər və sənaye parkları ilə balanslaşdırılmış olacaq, enerji təchizatı alternativ və bərpaolunan mənbələrə əsaslanacaq, müasir idarəetmə və nəzarət sistemləri tətbiq ediləcək.

### Şəhər və kəndlərin bərpası yüksək templə davam edir

Digər bir bölgədə - Füzuli şəhərində 2, 3 və 4 otaqlı olmaqla 846 mənzil istifadəyə verilib. Yaşayış binalarının birinci mərtəbələri qeyri-yaşayış obyektləridir ki, bu da müxtəlif təyinat üzrə sakinlərə icarəyə verilib. Şəhərdə marketlər, apteklər, dərzi, bərbər, geyim mağazaları, stomatoloji klinikalar, poçt, müxtəlif dövlət və özəl qurumların ofisləri fəaliyyət göstərir, 3 min 141 nəfərdən ibarət 824 ailə yaşayır.

Füzulidə tikinti və bərpa işləri şəhərlə yanaşı, kəndlərdə də davam edir. Hazırda Dövlətyarlı kəndində tikinti işləri aparılır. Kənddə 450 fərdi evin tikintisi nəzərdə tutulur. Həmçinin 360 şagird yerlik tam orta məktəb, 120 yerlik uşaq bağçası, həkim məntəqəsi, eləcə də inzibati və çoxfunksiyalı bina tikilir. Bununla yanaşı, məktəb və bağçalar üçün qazanxana sistemi, transformatorlar və digər mühəndis qurğuların da quraşdırılması nəzərdə tutulur. Rayonun Pirəhmədli kəndində isə şaquli planlama işləri başa çatdırılıb. Tikintiyə başlanılıb, birinci mərhələdə 255 fərdi yaşayış evinin tikintisi nəzərdə tutulub.

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Ağdam şəhərində beş məhəllə konsepsiyası üzrə tikinti işləri həyata keçirilir. Yaşayış binaları, məktəblər, körpələr evi, parklar və yollar inşa olunur. Rayonun Sarıcalı, Xıdırlı və Kəngərli kəndlərinə əhalinin köçü təmin edilib. Hazırda Ağdam şəhəri ilə yanaşı, rayonun Baş Qərvənd və Eyvazxanbəyli kəndlərinin tikintisi həyata keçirilir. Bu gün Ağdamda dəmir yolu, avtovağzal kompleksi, yeni yaşayış massivləri, məktəblər, mehmanxanalar, su anbarları və enerji infrastrukturu ardıcıl şəkildə istifadəyə verilir. 2025-ci ilin oktyabrına qədər 825 ailə - 3318 nəfər doğma torpaqlarına qayıdıb.

### İctimai obyektlərin bərpasına başlanılıb

Xocavənd rayonunun Hadrut və Qırmızı Bazar qəsəbəsi, eyni zamanda, Sos kəndinə sakinlərin köçü reallaşıb. Burada genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilib, müxtəlif həcmlərdə su anbarları və içməli su şəbəkəsi təmir edilib. İctimai obyektlərin bərpası çərçivəsində isə market və restoran binası bərpa edilərək fəaliyyətə başlayıb. Həmçinin qaz və su şəbəkələri təmir edilib. Ümumilikdə isə Xocavənd rayonunda hazırda 59 ailə, 223 sakin yaşayır.

Zəngilan şəhərində və Cəbrayıl rayonunun Şükürbəyli kəndində tikinti işləri yekunlaşmaq üzrədir. Cəbrayıl rayonunun Soltanlı, Qubadlı rayonunun Mahruzlu, Zilanlı, Zəngilan rayonunun Cahangirbəyli kəndlərində isə tikinti işləri davam etdirilir.

Hazırda keçmiş məcburi köçkünlər yenidən qurulan Zəngilan rayonunun Ağalı, Məmmədbəyli kəndlərində, Cəbrayıl şəhər 1-ci yaşayış kompleksində və Horovlu kəndində məskunlaşıblar. 2026-cı ilin sonunadək 87 yaşayış məntəqəsinin (12 şəhər, 5 qəsəbə, 70 kənd olmaqla) bərpası nəzərdə tutulur. Bu günə kimi görülən işlərin icra tempi və keyfiyyət göstəciləri yaxın gələcəkdə bütün Qarabağın və Şərqi Zəngəzurun müasir infrastruktura malik, investisiyalar üçün cəlbedici bölgələrə çevriləcəyini deməyə əsas verir.

***E.CƏFƏRLİ***

# Mərkəzi Bank uçot dərəcəsini niyə azaltdı?

**Mərkəzi Bank (MB) faiz dəhlizinin bütün parametrləri ilə bağlı növbəti qərarını açıqlayıb. Qərara əsasən, faiz stavkası 0,25 faiz-bənd azaldılıb. Belə ki, uçot dərəcəsi 6,75 faiz, faiz dəhlizinin aşağı həddi 5,75 faiz, dəhlizin yuxarı həddi isə 7,75 faiz səviyyəsinə endirilib. Bu, Mərkəzi Bankın oktyabr ayında elan etdiyi uçot dərəcələri ilə müqayisədə faiz dərəcəsinin azaldılması deməkdir. Belə ki, MB-nın bundan əvvəlki qərarına əsasən, uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində müəyyənləşmişdi. Yeni qərardan sonra bank, maliyyə və kredit sektorunda daha yumşaq kredit siyasəti təmin olunacaq.**

### İnflyasiya proqnozlaşdırılan hədəf daxilindədir

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. Bu nöqteyi-nəzərdən MB faiz dəhlizi ilə bağlı qərarı qəbul edərəkən ilk növbədə ölkəmizdəki faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf intervalı (4±2 faiz) ilə uzlaşmasına, qlobal iqtisadiyyat və maliyyə bazarlarındakı mövcud vəziyyətə, daxili makroiqtisadi meyillərə, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyünün xüsusiyyətlərinə istinad edib.

Aparılmış təhlillərə görə, hazırda illik inflyasiya proqnozlaşdırılan trayektoriyaya uyğun hərəkət edir və hədəf daxilindədir. 2025-ci ilin oktyabrında 12 aylıq inflyasiya 5,9 faiz təşkil edib. İllik baza inflyasiya isə 5 faiz olub. Faktiki inflyasiya başlıca olaraq xarici və daxili xərc amillərindən təsirlənir. Yəni, istehlak qiymətləri indeksi üzrə mövcud ssenarilər qənaətbəxş sayıldığından MB faiz endirimini riskli addım hesab etmir.

Faiz dəhlizinə təsir edən digər bir amil valyuta bazarındakı fraqmentasiyalardır. MB-nin tədqiqat bloku tərəfindən aparılan qiymətləndirmələrə görə, cari ildə valyuta bazarında təklif tələbi üstələdiyi üçün burada ümumilikdə vəziyyət stabil qalır. Belə ki, 2025-ci ilin yanvar-noyabr aylarında mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 393 milyon dolları üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsi son 12 ayda 2,1 faiz-bənd azalaraq noyabrda 29 faizə enib. Məzənnə ilə bağlı gözləntilər də nikbindir. Belə bir şəraitdə 2025-ci ilin 11 ayında Mərkəzi Bankın valyuta ehtiyatları 4,3 faiz artaraq 11,4 milyard dollara çatıb.




### Valyuta bazarında göstəricilər əlverişli olaraq qalır

Valyuta bazarında tarazlığın əsas amili olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Ötən aylarda ölkəmizin tədiyə balansının cari əməliyyatlar balansında 3 milyard dolları və ya ÜDM-in 5,4 faizi məbləğində profisit formalaşıb. Əməliyyatlar balansının profisiti əsasən xarici ticarət və təkrar gəlirlər balanslarının profisitindən irəli gəlib. Təkrar gəlirlər balansının əsas komponenti olan pul baratları üzrə xalis daxilolmaların dinamikası ötən ilə nəzərən müsbətdir. Mərkəzi Bankın 2025-ci və 2026-cı illərin sonuna cari əməliyyatlar hesabının profisitli olacağı ilə bağlı proqnozu dəyişməz qalır. Beləliklə, bu amil də faiz dərəcələrinin endirilməsinə əhəmiyyətli dərəcədə əsas verir.

Pul siyasəti alətlərinə gəlincə, ötən aylarda maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi müşahidə edilib. Maliyyə Nazirliyinin depozit hərraclarının davam etməsi bank sistemində likvidliyə artırıcı təsir göstərməkdə davam edir. Ötən iclasdan bəri təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində, uçot dərəcəsinə yaxın hərəkət edib. AZIR indeksinin orta günlük səviyyəsi oktyabrda 6,89 faiz, noyabrda 6,91 faiz, dekabrın ötən dövründə isə 6,94 faiz olub. Mərkəzi Bank əsasən 1 həftəlik açıq bazar əməliyyatları ilə pul siyasətindən kənar amillərin AZIR-ə təsirini minimallaşdırıb. Göründüyü kimi, MB-nın ötən iclasından keçən ay yarımlıq dövrdə depozit və kredit faizlərində əhəmiyyətli dəyişiklik müşahidə olunmayıb.




### Anti-inflyasiya tədbirləri diqqətdə saxlanılacaq

Mərkəzi Bank dekabrın qalan iki ongünlüyü dövründə daxili bazar proseslərində ciddi mühüm dəyişikliklər gözləmədiyini fərz edir. Xüsusilə də, inflyasiya təhdidləri üçün əsaslı fundamental rıçaqların ortaya çıxacağı nəzərə çarpmır. Noyabr ayı və dekabrın birinci ongünlüyündə inflyasiya riskləri balansında baş verən dəyişikliklərin təhlili artırıcı risklərin nisbətən səngidiyini göstərir. Bununla belə, geosiyasi gərginliklər və qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarları ilə bağlı qeyri-müəyyənlikləri hələ də yüksək səviyyədə saxlayır. Əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Bu risk ticarət tərəfdaşlarında inflyasiya prosesləri və nominal effektiv məzənnənin dinamikasından asılı olacaqdır. Daxili risk faktorları isə əsasən təklif - xərc amilləri hesabına formalaşmaqdadır. 2026-cı ilə dövlət büdcəsinin ilkin parametrləri və kredit qoyuluşlarının illik artım tempinin səngiməsi məcmu tələbin izafi artımı riskini azaldır. Baza ssenariyə əsasən, 2025-ci ilin sonuna və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Son meyillərin təhlili növbəti ilə inflyasiya proqnozunun azalma istiqamətində dəyişdirilməsi ehtimalının olduğunu göstərir.

Bütün bunlara rəğmən, Mərkəzi Bank qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcəyini bəyan edir. Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb edəcək. 2026-cı ildə inflyasiya ilə mübarizə strategiyası çərçivəsində əvvəlki kursa uyğun addımlar atılacaq, inflyasiyanın əhalinin alıcılıq qabiliyyətinə və real gəlirlərinə mənfi təsirlərinin azaldılması əsas vəzifələrdən biri kimi xüsusi diqqət mərkəzində saxlanılacaq.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar proqnoz və faktiki inflyasiyanın istiqaməti, habelə makroiqtisadi təhlillərin yenilənmiş nəticələri əsasında veriləcək.

***ELBRUS CƏFƏRLİ***

# Aİ səhvini düzəldəcəkmi?

Ermənistanın və onun havadarlarının bəzi terrorçuları "qəhrəmanlaşdırmasına" dair kifayət qədər faktlar var. Onların sırasında azərbaycanlılara və türklərə qarşı qanlı terror aktları törətmiş Monte Melkonyana münasibət buna əyani sübutdur.

Bu yaxınlarda isə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan hərbi-idman liseyi Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulub. Hansı ki, Melkonyanın "fəal" üzv olduğu və xeyli sayda insanın ölümünə səbəb olan ASALA beynəlxalq miqyasda terror təşkilatı kimi tanınır. Bu terrorçu Avropa ölkələrində türk diplomatlara və onların ailələrinə qarşı terror əməlləri törədib.

## Hipper: Yekun qərar hələ qəbul edilməyib

Məsələ ilə bağlı azərbaycanlı jurnalistlər Aİ-nin Xarici siyasət və təhlükəsizlik xidmətinin rəsmi nümayəndəsi Anita Hipperə də sual ünvanlayıblar. Xanım Hipper isə bildirib ki, Avropa Təhlükəsizlik və Müdafiə Kolleci ilə Monte Melkonyan adına erməni hərbi liseyi arasında əməkdaşlıq memorandumu çox erkən mərhələdədir. Onun sözlərinə görə, hazırda bu məsələ ilə bağlı hər hansı qərar qəbul edilməyib: "Biz hələ də akademik qiymətləndirmə mərhələsindəyik. Yekun qərar kollecin 27 Aİ üzv dövlətinin təmsil olunduğu idarəedici komitəsi tərəfindən qəbul edilməlidir".

Sazişin imzalanmaya biləcəyi ilə bağlı dəqiqləşdirməyə cavab olaraq A.Hipper deyib ki, yekun qərardan danışmaq hələ tezdir, çünki məsələ hələ də ilkin mərhələdədir: "Biz nəticə barədə əvvəlcədən mühakimə yürüdə bilmərik".

Məlumdur ki, Melkonyan ASALA terror təşkilatının ASALA-RM (revolutionary movement) qanadının "qurucusu", Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. O, Xocalı soyqırımı zamanı əsir düşmüş azərbaycanlılara ağır işgəncələr verilməsində də iştirak edib.

Nəzərə alaq ki, M.Melkonyan 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı da hərbi əməliyyatlarda iştirak edib və ağır cinayətlər törədib. Onun bu cinayətləri ötən əsrin 70-80-ci illərində Avropanın bir sıra ölkələrində, o cümlədən Fransa, Yunanıstan, Portuqaliya, Danimarka, Avstriya və İspaniyada türk diplomatlara və onların ailə üzvlərinə qarşı terror hücumları həyata keçirən ASALA terror təşkilatı ilə əlaqələrindən sonra törədilib. Bu faktlar M.Melkonyanın uzun müddət terrorçu fəaliyyətlərdə iştirakının bariz göstəricisidir.



## Aİ rəhbərliyi cəmiyyətimizin etirazını nəzərə almalıdır

Yeri gəlmişkən, bu hadisə cəmiyyətimizdə haqlı narazılığa səbəb olub. Belə ki, Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qronoya və Avropa İttifaqın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçə müraciət ünvanlayıblar. Müraciətdə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan hərbi-idman liseyinin Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulması ilə bağlı xəbərin Azərbaycan ictimaiyyətində geniş çaşqınlıq və narazılıq doğurduğu vurğulanıb. Qeyd edilib ki, təhlükəsizlik, ortaq dəyərlər və məsuliyyətli idarəçilik prinsiplərini qoruduğunu iddia edən Avropa Təhlükəsizlik və Müdafiə Kollecinin himayəsi altında fəaliyyət göstərən forumun bu qərarı Avropanın dəstəklədiyi bütün platformalardan ədalət və hesabatlılıq gözləyən Azərbaycanın itkin ailələrində Aİ-nin öz prinsiplərinə sadiqliyinə dair ciddi suallar yaradıb.

Azərbaycan cəmiyyəti M.Melkonyanın adını daşıyan hərbi-idman liseyinə forumun üzvlük statusunun verilməsinə dair memorandumun imzalanmasını yolverilməz hesab edir. Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən azərbaycanlılar da daim erməni terrorçuları ilə bağlı etiraz səslərini ucaldıblar. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin silahlı işğalında iştirak edən və hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin, o cümlədən Monte Melkonyanın

## Aİ öz nüfuzuna zərbə vura bilər

hələ də qəhrəmanlaşdırılması, Aİ-nin Azərbaycanla bağlı, xüsusilə də ərazi bütövlüyü və dövlət suverenliyinə dair məsələlərdə ikili yanaşmanı davam etdirməsi ən azı təəssüf hissi doğurur.

Xüsusilə, Azərbaycanın Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərinin ailələri sual edirlər ki, fəaliyyəti qətliamlardan ibarət olan Monte Melkonyanın adını daşıyan bir qurum Aİ tərəfindən dəstəklənən bir platformada necə təşviq oluna bilər? Onlar da Avropa İttifaqını bu addımı yenidən nəzərdən keçirməyə və terrorçunun adını daşıyan bir qurumla bağlanmış razılaşmanı ləğv etməyə çağırırlar. Aİ-nin Xarici siyasət və təhlükəsizlik xidmətinin rəsmi nümayəndəsi Anita Hipperin açıqlamasından da anlaşılır ki, məsələ ilə bağlı yekun qərar verilməyib. Ona görə də, Aİ-nin bu yanlışı düzəltmək imkanı hələ də var. Əks halda, qatı terrorçunun adını daşıyan bir liseyə "qucaq açmaq" ən azı Avropa İttifaqının nüfuzuna zərbə ola bilər.

*Nardar BAYRAMLI*

# Paşinyan Almaniyada...

Azərbaycanın 2020-ci ildən sonra bölgədə yaratdığı yeni reallıqların mühüm perspektiv vəd etməsi bütün dünya, o cümlədən, Ermənistanın siyasi rəhbərliyi tərəfindən də etiraf olunur. Təsadüfi deyil ki, Ermənistan baş nazirinin Almaniyaya son səfərində verilən açıqlamaların mütləq əksəriyyəti də bu faktı təsdiqləyir.

Dekabrın 9-da Almaniyaya səfər edən Nikol Paşinyan Almaniyanın kansleri Fridrix Mertslə görüşüb. Fridrix Merts ilə birgə mətbuat konfransında Azərbaycana nəzərən bildirib ki, "Biz iki ölkə arasındakı düşmənçilik fəslinin bağlanması üçün yol açmağa sadiqik. Həm indi, həm də gələcəkdə hər hansı bir revanşizm cəhdini qətiyyətlə rədd edirik və istisna edirik."

Paşinyan Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) layihəsinin Ermənistan və Türkiyə arasında əlaqənin açılması ilə yanaşı, Orta Dəhlizin vacib bir hissəsinə çevrilmək və Avropa, Cənubi Qafqaz və Orta Asiya arasında maneəsiz ünsiyyəti təmin etmək üçün hər cür şansa malik olduğunu da söyləyib: "Gələn il icra və tikinti mərhələsinə keçəcəyik. Bu layihənin həyata keçirilməsi regionda əlavə əlaqələr və qarşılıqlı münasibətlər yaradacaq və sülhün daha bir vacib amili olacaq". O, 8 avqustda Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan və Azərbaycan arasında Birgə Bəyannamənin imzalandığını xatırladıb.

## "TRIPP Company" qeydiyyatdan keçəcək...

Paşinyan qeyd edib ki, Vaşinqtonda əldə edilən əsas irəliləyişlərdən biri hər bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına hörmət əsasında iki ölkə arasında daxili, ikitərəfli və beynəlxalq nəqliyyat üçün əlaqələrin açılması barədə razılaşma olub. o vurğulayıb ki, "Bu səylərə Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan Respublikası ərazisindən maneəsiz əlaqənin təmin edilməsi, beynəlxalq və daxili daşımalar üçün qarşılıqlı faydaların təmin edilməsi daxildir".

Baş nazir bildirib ki, TRIPP layihəsinin həyata keçirilməsi üçün ilkin şərtlər ABŞ ilə müzakirə olunur: bu, Ermənistanda dəmir yolu və avtomobil yolları, neft və qaz boru kəmərləri və fiber-optik rabitə sahələrində zəruri infrastrukturun qurulması hüququna malik olacaq birgə erməni-amerikan şirkətinin qeydiyyatdan keçirilməsini nəzərdə tutur. Məlumata görə, bu şirkət "TRIPP Company" adlanacaq.



## Rəsmi Ankara ilə çox aktiv danışıqlar aparılır...

Paşinyan Almaniya Xarici Əlaqələr Şurasında "Ermənistanın sülhün, regional əlaqənin və Aİ ilə münasibətlərin institusionallaşdırılmasına yanaşmaları" mövzusunda panel müzakirəsi zamanı Ermənistan və Türkiyə arasında əlaqələrin intensivləşdiyini deyib. "Bu əlaqələr demək olar ki, bütün səviyyələrdə baş verir: mənimlə Prezident Ərdoğan, xarici işlər nazirlərimiz və xüsusi nümayəndələrimiz, iki Xarici İşlər Nazirliyi, eləcə də müvafiq sektor nazirlikləri arasında müvafiq görüşlər reallaşır. "Praktikada, hətta de-yure diplomatik münasibətlər olmadığı halda belə, rəsmi Ankara ilə çox aktiv danışıqlar aparılır və münasibətlər saxlayırıq", - deyə Paşinyan vurğulayıb.

Baş nazir Paşinyan Ankaranın müsbət qərar verəcəyinə ümid etdiyini bildirib: "Ümid edirəm ki, Türkiyə Ermənistanla sərhədi açmaq və diplomatik münasibətlər qurmaq üçün siyasi qərarı verəcək".

Baş nazirin sözlərinə görə, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması, Ermənistan və Azərbaycan arasında sülh, TRIPP layihəsi, Gürcüstan və İranla mehriban qonşuluq münasibətləri və Rusiya ilə konstruktiv dialoq Cənubi Qafqazı Şimal-Cənub və Şərq-Qərb marşrutları ilə yanaşı, ən cəlbedici tranzit dəhlizlərindən biri kimi təqdim edə bilər. "Və biz bu tarixi fürsəti reallaşdırmaq üçün bütün səylərimizi göstəririk", - deyə Ermənistanın Baş naziri vurğulayıb.

## Bu gün Ermənistan ərazisindən yük keçə bilər...

Nikol Paşinyan onu da bildirib ki, Ermənistan bu gün Türkiyə ilə Azərbaycan arasında yüklərin öz ərazisindən keçməsinə icazə verməyə hazırdır. O, Azərbaycanın öz ərazisindən Ermənistana yük daşınmasına qoyulan məhdudiyyətləri aradan qaldırmaq qərarını xatırladıb. "Azərbaycan Prezidentinin bu qərarını və bəyanatını çox yüksək qiymətləndirirəm, çünki bu, çox mühüm və müsbət hadisədir. Cəmi bir neçə ay əvvəl mümkünsüz görünən bu proses artıq reallığa çevrilib. Qazaxıstandan Ermənistana Azərbaycan və Gürcüstan ərazisindən keçməklə dəmir yolu ilə taxıl daşınıb", - deyə o bildirib.

Baş nazir bunun müstəqil Ermənistan tarixində misilsiz hadisə olduğunu vurğulayıb. Paşinyanın sözlərinə görə, Ermənistan həm siyasi, həm də texniki baxımdan Türkiyə ilə Azərbaycan arasında yüklərin öz ərazisindən tranzitinə icazə verməyə artıq bu gündən hazırdır. "Əminəm ki, sülhün bərqərar olunmasına gündəlik səylər, Vaşinqton bəyannaməsinin mətninə və ruhuna riayət edilməsi, eləcə də bu prosesi poza biləcək narrativlərdən imtina sayəsində Ermənistan və Azərbaycan hökumətləri iki ölkə arasında dayanıqlı sülhü institusionallaşdıra biləcəklər", - deyə Paşinyan bildirib.

*SADİQ*

**Mərhum jurnalist, "Monitor" jurnalının baş redaktoru Əli Kərimlini belə xarakterizə edirdi**

# ... Bir qab yal üçün sümsünən küçük

"Monitor" jurnalının 2002-ci il iyun buraxılışında "Xalq cəbhəsinin parıltısı və zırıltısı" adlı məqalə dərc olunub. Bu gün AXCP sədri Əli Kərimlinin həbsi ətrafında redikül müxalifətin ajiotaj yaratmaq, onu cəmiyyətə "mələk" simasında təqdim etmək cəhdlərini nəzərə alaraq həmin məqaləni ixtisarla dərc edirik. Bəri başdan bildirmək istəyirik ki, bu yazı Əli Kərimlinin xislətini, gerçək simasını açıb göstərən ştrixlərlə zəngindir. Qeyd edək ki, "Monitor" jurnalının mərhum redaktoru məqalədə Əli Kərimliyə "... Bir qab yal üçün sümsünən küçük" tərifini verib.

Əvvəlcə, zamanında "Monitor" jurnalı ilə bağlı yaşanan bir faciəvi hadisəni xatırlatmaq istərdik. AXCP sədri öz xislətinə uyğun olaraq jurnalın baş redaktoru Elmar Hüseynovun yaşadığı evin qarşısında qətlə yetirilməsindən siyasi dividentlər qazanmaq istəyib. Belə ki, o, jurnalda iqtidar barəsində tənqidi yazıların dərc olunmasına əsaslanmaqla hipotez qurub və o iddiadan çıxış edib ki, baş redaktorun qətlinin sifarişi hakimiyyətdən gələ bilər. Lakin Elmar Hüseynovun yazılarını araşdırarkən məlum olur ki, mərhum baş redaktor ən kəskin tənqidlərini məhz müxalifət düşərgəsi, xüsusilə də Əli Kərimli barəsində qələmə alıb. Beləliklə də, Əli Kərimlinin "məntiqi" onun özünə qarşı çevrilir...

Məqalə AXCP -nin tarixinə qısa arayışla başlayır. Qeyd olunur ki, cəmiyyət həyatında iştirak edən kütləvi-siyasi təşkilatlardan heç biri Xalq Cəbhəsi Partiyası qədər gərgin diskussiyalar doğurmayıb. Bu da onunla əsaslandırılır ki, Elçibəyin ölümündən sonra Xalq Cəbhəsinin daxilində başlayan dağılma prosesi davamlı hal alıb. Partiyanın dağılması Elçibəyin çiyindaşlarının ünvanına kəskin və müəyyən qədər də haqlı ittihamların səsləndirilməsi ilə sonuclandı.

Məqalədə eks-prezidentin siyasi irsi haqqında danışarkən bu irsin ilk növbədə 1995-ci ildə yaradılmış Xalq Cəbhəsi Partiyası vasitəsilə qorunması və inkişaf etdirilməsinin nəzərdə tutulduğu vurğulanır. Odur ki, bu təşkilatın parıltısının və zırıltısının məqalədə prioritet olacağı əvvəlcədən diqqətə çatdırılır.

Yazının "Əks-inqilabdan doğulanlar" yarımbaşlığı altında Xalq Cəbhəsinin iki çöküş dövründən bəhs edilir. Bunlardan biri 20 Yanvar hadisələrindən, digəri isə Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra baş verib. "Prezident Elçibəyin qaçışı - məhz bu, hər bir cəbhəçi üçün biabırçı damğa olub, hərəkatın çöküşünə yol açdı. Öz istefasından bir neçə ay əvvəl Elçibəy Əli Kərimlini populyarlaşdırmağa başladı. Həmin məqamda cəbhənin "başına gələcək" müsibətləri mərhum Elçibəy təsəvvür edirdimi? Bu haqda ehtimal etmək qalır".

Müəllif "Masson lojası"nın parıltısı" yarımbaşlığı altında Əli Kərimlinin ətrafından bəhs edir. Qeyd olunur ki, həmin vaxtlar ölkə mətbuatı AXCP rəhbərliyində gizli adı "Yurd" olan və özü də hakimiyyətlə sıx əlaqədə olan hansısa bir sirli qüvvə haqqında yazmağa başladı. Əli Kərimlinin ətrafında birləşən yeni cəbhəçi nəsil sanki "masson lojası"na bənzər sirli bir cəmiyyətə oxşamağa başlamışdı. Əli Kərimlinin inkar cəhdlərinə baxmayaraq, sonradan belə bir təşkilatın həqiqətən mövcud olduğu təsdiqlənib. Beləliklə də, Əli Kərimli "masson lojası" ilə birlikdə digər müxalifət partiyaları tərəfindən hakimiyyətlə separat sövdələşmələrdə ittiham edildi.






"Yurdçu massonlar" siyasi riyakarlığı udaraq hakimiyyətlə əməkdaşlığın mümkünlüyü haqqında daha bərkdən danışmağa başladılar. Müxalifət qalıqları Əli Kərimlini tamam-kamal satqınlıqda ittiham etdilər... Bu, parçalanmanın başlanğıcı idi. Elçibəy heç nə olmamış kimi susurdu", - deyə məqalədə bildirilir.

Məqalədə qeyd olunur ki, mahiyyətcə Elçibəyin ölümü cəbhəçi liderlərin və AXCP-dəki sualtı mərcan qayalarının qarşıdurmasını aşkarladı. O cümlədən həmin vaxtadək Əli Kərimlinin tərəfdarları olmuş bir çoxları liderlərinin hakimiyyətə loyallıqda çox uzağa getdiyini anlayaraq tələm- tələsik "mason lojası"nı tərk etdilər. Məqalədə o da qeyd olunur ki, bütün bu proseslər Əli Kərimliyə qarşı neqativ yüklənmiş protestçi elektoratın fikrinə də təsir elədi, bu isə parlament seçkilərindəki məğlubiyyətlə ifadə olundu. Əli Kərimlinin AXCP-si 5 faizlik baryeri aşa bilmədi və bununla da tənqidin haqlı gülləbaranına tuş gəldi. Amma Əli Kərimli növbəti tula payından - bir neçə deputat mandatından yararlanmaq imkanını qaçırmaq istəmir və sistemin içində olmaq üçün çabalar göstərirdi.

"Bir dəfə aldatdınsa..." yarımbaşlığı altında "maklavellist tülkü" Əli Kərimlinin perspektivin saxlanılması naminə çirkaba bulaşmış keçmişini yumalı olduğu vurğulanır.

"Q əməliyyatı və başqa sərgüzəştlər" yarımbaşlığı altında oxuyuruq:

"Ə.Kərimli ən yaxın dostu və silahdaşından, çətin və taleyüklü günlərində özü qədər etibar etdiyi, bir vaxtlar irəli çəkdiyi keçmiş köməkçisindən ağır və arxadan zərbə alır.

Bir vaxtlar sirlər pərdəsinə bürünmüş cəbhəçilərin taleyini həll edən siyasətçi Əli Kərimlinin əvvəlki inamından nə qalıb? Azərbaycan müxalifətçilərinin yeni nəslinin ulduzu hansı vəziyyətdədir? Özünüz deyin.

Parıltıdan zırıltıya yol çox ağırdır. Siyasətçi üçün miskinlik nə olan şeydir? Bəlkə, redikül cəbhədə yer alan müxalifətçilərin Əli Kərimliyə xitabən "bir qab yal üçün sümsünən küçük" demələri? Ya bəlkə ona zənginliyə - avtomobillərə, cangüdənlərə, əla mənzilə olan sevgisini tez-tez xatırlatmaları?

Hə, bunlar siyasi miskinlikdir. O, adamı həyatın dibinə salır, şərəf və ləyaqətdən məhrum edir. Necə ki, indi Əli Kərimli quyunun dibindədir, hətta çiyindaşları arasında belə nüfuzu palaz kimi yerlə bir olub.

# Böyük Britaniya sanksiyaları genişləndirir

## Məqsəd Rusiyanı sülhə məcbur etməkdir

Rusiya-Ukrayna müharibəsində diplomatik təşəbbüslərin artdığı vaxtda cəbhə xəttində döyüşlər də güclənir. Rusiya qoşunları diplomatik masada üstünlüyünü qorumaq üçün daha çox ərazi ələ keçirməyə çalışır. Belə bir şəraitdə Kiyev və müttəfiqləri hücumların miqyasını azaltmaq və Rusiyanı zəiflətmək üçün müxtəlif təşəbbüslər göstərir. Belə təşəbbüslərdən biri də Rusiyaya qarşı sanksiyaları daha da gücləndirməkdir.

Yeri gəlmişkən, Böyük Britaniya Rusiyaya qarşı sanksiyalar siyahısını genişləndirib. Məhdudiyyətlər siyahısına filosof Aleksandr Duqin, "Rıbar" hərbi-analitik mərkəzinin rəhbəri Mixail Zvinçuk əlavə edilib. Rusiyanın xaricdə yaşayan soydaşlarının müdafiə və dəstəyi ilə məşğul olan fonduna da sanksiya tətbiq olunub. Həmçinin Geosiyasi Ekspertiza Mərkəzi, "Qolos" informasiya resursları və "Euromore" də məhdudiyyətlərlə üzləşib. Bundan sonra həmin şəxslər Böyük Britaniyaya səfər edə bilməyəcəklər və aşkar olunduğu təqdirdə onlara aid səhmlər dondurulacaq.

### Rusiyanın hərbi kəşfiyyat agentliyi sanksiyalar altında

Dekabrın əvvəlində isə Böyük Britaniya hökuməti Rusiyanın hərbi kəşfiyyat agentliyi olan GRU-ya qarşı genişmiqyaslı sanksiyalar tətbiq edib. Britaniya Xarici İşlər Nazirliyinin məlumatına görə, bu tədbirlər 2018-ci ildə Solsberidə baş vermiş hadisələrlə bağlı aparılan araşdırmanın yekun hesabatından sonra elan olunub. Bildirilib ki, Böyük Britaniya GRU-nu tam şəkildə sanksiya siyahısına daxil edib. Rusiyanın Britaniyadakı səfiri Xarici İşlər Nazirliyinə çağırılaraq, Rusiyanın Böyük Britaniyaya qarşı davam edən düşmənçilik fəaliyyətinə görə izahat verməsi tələb edilib.

Hökumətin açıqlamasında qeyd olunub ki, sanksiyalar, həmçinin GRU üçün çalışan 8 kiber hərbi kəşfiyyat zabitini də əhatə edir. Hesabatda deyilir ki, həmin şəxslər Yuliya Skripalı "X-agent" zərərli proqramı ilə hədəf alan kiberhücumlarda və beş il sonra Yuliya və atasını Böyük Britaniya ərazisində öldürməyə cəhd edən əməliyyatda iştirak ediblər. Böyük Britaniya hökuməti bəyan edib ki, Rusiya tərəfindən həyata keçirilən bu cür düşmənçilik fəaliyyətlərinə qarşı sərt və davamlı cavab veriləcək.

### Rusiya məhsullarına məhdudiyyətlər

Böyük Britaniyada bir sıra məhsulların və texnologiyaların Rusiyaya ixracına dair yeni qadağalar da qüvvəyə minib. Britaniya hökumətinin saytında dərc olunan sənədə görə, məhdudiyyətlər əsasən Rusiyada funt sterlinq və avro banknotlarından istifadəyə, dəniz sektoru və neft emalı sahəsinə aid məhsullara, həmçinin kimyəvi və bioloji silahların istehsalına aid texnologiyalara şamil edilir. Qadağalara, həmçinin bu kateqoriyadan olan məhsulların servisi, maliyyə və ya broker xidmətlərinin göstərilməsi də daxildir.




Bundan əlavə, Böyük Britaniya ABŞ-la birlikdə metal ticarətində də Rusiyaya qarşı sanksiyaları genişləndirib. Bu barədə Böyük Britaniya Xarici İşlər Nazirliyinin və ABŞ Xəzinədarlığının yaydığı bəyanatda bildirilib. Qeyd olunub ki, London Metal Birjası və Çikaqo Ticarət Birjası artıq öz anbarlarındakı alüminium, mis və nikel ehtiyatlarını Rusiya mənşəli xammal tədarük etməklə doldura bilməyəcək. Böyük Britaniyanın maliyyə naziri Ceremi Hant bildirib ki, Londonun Vaşinqtonla birlikdə atdığı həlledici addım Rusiya metallarının iki ən böyük əmtəə birjasına çıxışının qarşısını almaqla bu ölkənin hərbi sənaye kompleksini maliyyə vəsaitindən məhrum edəcək.

Tətbiq olunan məhdudiyyətlər hər iki birjanın anbarlarındakı Rusiya metallarının mövcud ehtiyatlarına şamil edilmir, onlarla ticarət əməliyyatları hələ də aparıla bilər. Lakin hər iki birja artıq Rusiyanın misini, alüminiumunu və nikelini ala bilməyəcək. Xatırladaq ki, hələ ötən il Böyük Britaniya Rusiya mənşəli mis, alüminium və nikelin idxalını tamamilə qadağan edib.

### London Aİ və ABŞ-la koordinasiyalı fəaliyyət göstərir

Nəzərə alaq ki, Britaniya hökuməti bir çox hallarda Rusiyaya qarşı sanksiyaların tətbiqi zamanı ABŞ və Avropa İttifaqı (Aİ) ilə koordinasiyalı fəaliyyət göstərir. Bu yaxınlarda Kiyevdə ABŞ, Böyük Britaniya və Avropa İttifaqı ölkələri də daxil olmaqla 21 dövlətin nümayəndələrinin iştirakı ilə ilk "sanksiyalar" sammitinin keçirilməsi də bunun göstəricisidir. Sammitin nəticəsi olaraq beynəlxalq sanksiya koalisiyasının gücləndirilməsi üzrə əlavə planın hazırlanacağı, həmçinin Aİ-nin 20-ci sanksiya paketinə dair təkliflərin formalaşdırılacağı nəzərdə tutulur.

Xatırladaq ki, Avropa İttifaqına üzv ölkələr Rusiyaya qarşı sonuncu - 19-cu sanksiyalar paketini oktyabr ayında qəbul ediblər. Bu istiqamətdə işlərə hələ iyul ayında - 18-ci sanksiyalar paketi təsdiqləndikdən dərhal sonra başlanmışdı. O zaman Avropa İttifaqı "yarımçıq tədbirlərlə kifayətlənməyəcəyini" bəyan etmişdi. 19-cu sanksiyalar paketinin qəbulu isə asan olmayıb. Çünki Aİ daxilində həmin məhdudlaşdırıcı tədbirlərin qəbul olunmasına bir sıra müqavimətlər var idi. Narazılar hesab edirdilər ki, bu sanksiyalar Aİ ölkələrinə də mənfi təsir göstərə bilər. Buna baxmayaraq, ittifaq daxilində konsesusa gəlmək mümkün olub. Avropa İttifaqının 19-cu sanksiyalar paketi üzv ölkələrə Rusiyadan maye qaz idxalını qadağan edir. Bu sanksiyalar paketi, həmçinin Rusiya diplomatlarının Avropa İttifaqı ölkələri ərazisində hərəkətinə məhdudiyyətlərin tətbiqini də ehtiva edir. Qadağanın mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Qısamüddətli müqavilələr üçün 6 aylıq keçid dövrü müəyyən edilib. Uzunmüddətli müqavilələr üzrə qadağa isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Sanksiya siyahısına "kölgə donanması"nın daha 117 tankeri daxil edilib, bununla da sanksiya altında olan gəmilərin ümumi sayı 558-ə çatır. "Maliyyə" blokuna qarşı məhdudlaşdırıcı tədbirlər aşağıdakıları əhatə edir: Rusiya tərəfindən istifadə olunan təyyarə və gəmilərin üçüncü ölkəyə satıldıqdan sonra ilk 5 il ərzində sığortalanmasının qadağan edilməsi; 5 Rusiya bankı ilə əməliyyatlara tam qadağa qoyulması və elektron ödəniş sistemlərinə, xüsusilə "Mir" sisteminə mövcud qadağanın, eləcə də Belarus və Qazaxıstandakı daha 4 banka qarşı sanksiyaların genişləndirilməsi. Bundan başqa, Avropa operatorlarının Rusiyada turizmlə bağlı xidmətlər göstərməsinə qadağa qoyulacaq.

Qeyd edək ki, Aİ-nin Rusiyaya qarşı bu tip sanksiyalarını Böyük Britaniya da tətbiq edib. Onlar Ukraynanın tərəfdaşları olduğu üçün bu yolla Rusiyanı sülhə məcbur etməyə çalışırlar.

***N.BAYRAMLI***

# Dondurulmuş Rusiya aktivlərinin müəmmalı taleyi...

## Avropa yekdil qərara gələ bilmir: 3 ölkə etiraz edir

Rusiya-Ukrayna müharibəsinin yekunlaşması istiqamətində aparılan danışıqlar Qərb dünyasında birmənalı qarşılanmır. Belə ki, ABŞ-ın müharibənin dayanması üçün sülh planı hazırlamasının qarşılığında Avropa özünün planlarını irəli sürür. Nəticə etibarı ilə, münaqişəyə fərqli standartlardan baxış və dəyərləndirmə ortaya çıxır. Məsələn, Vaşinqton müharibə edən tərəflər arasında kommunikasiya yaratmaq, maraqları uzlaşdırmaq üçün fərqli formatlarda görüşlər təşkil edərkən, Avropa Kiyevə silah yardımı etmək üçün maliyyə mənbələrini araşdırır. Bu maliyyə mənbələrinin ən "hazır şəkildə ortada" olanı isə Rusiyanın dondurulmuş aktivləridir. Qeyd edək ki, müharibəyə baxışda nəzərə çarpan ikitirəliyin fonunda aktivlərin Ukraynaya verilməsi məsələsi yenidən gündəmə gəlib.

### 18 dekabra qədər...

"The Times" qəzeti Böyük Britaniya hökumətindəki mənbələrə istinadən bildirib ki, Avropa ölkələri bu və ya gələn həftə Rusiyanın suveren aktivlərinin müsadirə edilməsi barədə razılaşma elan edəcəklər. Mənbələrə görə, məsələ 8 dekabrda Londonda Böyük Britaniyanın Baş naziri Kir Starmer, Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Fridrix Merts və Ukrayna Prezidenti Volodimir Zelenski arasında keçirilən görüşdə müzakirə olunub. Qəzet iddia edir ki, "razılaşma çox yaxındır". "The Times"ın məlumatına görə, razılaşmanın Ukraynaya dondurulmuş Rusiya aktivlərindən 100 milyard funt sterlinq (133 milyard dollar) təmin etməsi gözlənilir. Bunun təxminən 8 milyard funt sterlinqi (10,6 milyard dollar) Böyük Britaniya tərəfindən köçürüləcək. Vəsait Kiyevə hərbi yardım və ya Ukraynanın yenidən qurulması üçün istifadə olunacaq.

Aİ liderləri uzun müddətdir ki, Ukraynanı maliyyələşdirmək üçün dondurulmuş Rusiya aktivlərinin müsadirəsini müzakirə edirlər. 3 dekabrda Avropa Komissiyası iki mexanizmi təsdiqləyib - onların arasında bütün Aİ ölkələrinin razılığı olmadan belə "ixtisaslı səs çoxluğu" ilə təsdiqlənə bilən Rusiya aktivlərindən istifadə etməklə təzminat kreditinin verilməsi də yer alır. Aktivlərin istifadəsi planının 18 dekabrda keçiriləcək sammitdə müzakirə edilməsi planlaşdırılır - Avropa Komissiyası isə sammitə qədər Aİ ölkələrinin dondurulmuş Rusiya aktivlərindən 210 milyard avroya qədər istifadə mexanizmi barədə razılığa gəlməsini istəyir. Bəlli olduğu kimi, Aİ daxilində bu məsələ ilə bağlı yekdil fikir yoxdur: Rusiyanın Avropadakı dondurulmuş aktivlərinin əksəriyyətinin - 185 milyard avronun saxlanıldığı "Euroclear" depozitariyasının yerləşdiyi Belçika müsadirəyə qarşı çıxır. "Euroclear" özü və Avropa Mərkəzi Bankı (AMB) da buna etiraz edir.

### G7 nəzərdən keçirməyə hazırdır...

G7 ölkələri də Ukraynada ədalətli və davamlı sülhün təmin edilməsi üçün bütün dondurulmuş Rusiya aktivlərindən istifadə imkanlarını araşdırır. Bu, 8 dekabrda dərc olunmuş G7 maliyyə nazirlərinin birgə bəyanatında əksini tapıb. Belə ki, dekabrın 8-də G7 maliyyə nazirləri Beynəlxalq Valyuta Fondu, Dünya Bankı Qrupu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və Maliyyə Sabitliyi Şurasının rəhbərləri ilə virtual görüş keçiriblər. Ölkələr Ukraynada sülhün təmin edilməsi üçün bütün dondurulmuş Rusiya fondlarından istifadə imkanlarını nəzərdən keçirməyə hazır olduqlarını bildiriblər. Bəyanatda deyilir: "Müharibəyə son qoymaq və Ukraynada ədalətli və davamlı sülhü təmin etmək üçün Rusiyanın təzminat ödəməsi gözlənilən yurisdiksiyalarımızda dondurulmuş bütün Rusiya suveren aktivlərindən potensial istifadə daxil olmaqla, Ukraynanı dəstəkləmək üçün geniş maliyyələşdirmə variantları hazırlamaq üçün əməkdaşlıq etməyə davam edəcəyik".



### Brüsseli razı salmaq üçün...

Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen də prosesi sürətləndirməyə ümid edir. "Reuters" agentliyinin məlumatına görə, 8 dekabrda 7 Aİ ölkəsinin - Estoniya, Finlandiya, İrlandiya, Latviya, Litva, Polşa və İsveçin liderləri bloku Ukraynanın maliyyələşdirilməsi üçün dondurulmuş aktivlərdən istifadə təklifini tez bir zamanda irəli sürməyə çağırıb və bu barədə Aİ rəhbərinə məktub yazıblar. Belçika və Macarıstan isə buna etirazını davam etdirir.

Ümumi fikir budur ki, Macarıstan və Slovakiya istisna olmaqla, bütün Aİ ölkələri Moskvanın əks tədbirləri ilə bağlı problemlər yarandıqda Brüsselə zəmanət verəcəklər. Onların payı, çox güman ki, bölüşdürüləcək və ən böyük məbləğ Almaniya tərəfindən təmin ediləcək. "Politico" qəzeti bu rəqəmi 50 milyard avrodan çox qiymətləndirir. Fransa 34 milyard avro, İtaliya 25 milyard avro ilə siyahını tamamlayır. Yazılacaq iltizamda "ələ keçirmə" və ya "müsadirə" sözləri rəsmi olaraq istifadə olunmayacaq - onlar hamısı "təhlükəsizlik tədbirləri" adlandırılacaq. "Təzminat" sözü də "kredit"lə əvəz olunacaq.

### Yaponiya da "yox" deyir...

Yaponiya da Ukraynanı maliyyələşdirmək üçün Rusiyanın dondurulmuş 30 milyard dollarlıq suveren aktivlərindən istifadə etməkdən imtina edib. Tokionun qərarı müharibədən sonra Ukraynaya davamlı dəstək üçün Aİ-nin beynəlxalq arxitektura qurmaq planlarını poza bilər. Dekabrın 8-də baş tutan G7 maliyyə nazirlərinin görüşündə yaponiyalı naziri Satsuki Katayama Ukraynaya kredit vermək üçün ölkəsinin banklarında hərəkətsiz saxlanılan təxminən 30 milyard dollarlıq Rusiya aktivlərindən istifadə etməyi istisna edib. Ölkə hüquqi məhdudiyyətlərə istinad edib.

***SADİQ***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır

# Vətənpərvərliyin qüdrəti...

## Gənclərimizin formalaşmasında prioritet istiqamətlər

*Yeganə*

Sabahın əsgərləri olacaq məktəblilər şəhidlərimiz haqqında məlumatlı olmalı, milli qəhrəmanlarımızı tanımalıdırlar. Onların vətənpərvər ruhda böyümələri üçün savadlı, bilikli olmaları da çox vacibdir. Bu işdə müəllimlərin üzərinə böyük vəzifələr düşür. Müntəzəm olaraq məktəblilərə ölkəmizin müdafiə qüdrəti, qanunları, respublikanın Silahlı Qüvvələri barədə geniş məlumat verilir. Şagirdlər hərbi vətənpərvərlik mövzusunda keçirilən dərslərdə fəal iştirak edirlər. Silahları, texnikaları böyük həvəslə öyrənirlər.

**Hərbi-vətənpərvərlik tədrisi**

Məktəblilər hərbi-vətənpərvərlik mövzusunda keçirilən dərslərdə yalnız nəzəri məlumatlarla kifayətlənmirlər, eyni zamanda praktiki təcrübələrə də böyük maraq göstərirlər. Silahlar, texnikalar, hərbi taktika və strategiyalarla bağlı dərslərdə şagirdlər fəal iştirak edir və bu sahədə olan məlumatlarını artırırlar. Bu, yalnız onları fiziki və ruhi olaraq hazırlamır, həm də müdafiə gücünü və rolunu daha dərindən anlamalarına kömək edir.

**Bu fakt gənclərimizi ayıq-sayıq olmağa sövq edib**

Mövzunu "Yeni Azərbaycan"a şərh dən Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov bildirib ki, Azərbaycan gəncliyinin sahib olduğu ən vacib xüsusiyyətlərdən biri hərbi-vətənpərvərlik ruhunun yüksək səviyyədə olmasıdır: "Hamıya bəllidir ki, Ermənistanın ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə qarşı təcavüzünün qarşısının alınmasında Azərbaycanın vətənpərvər gəncləri hər zaman öndə olublar. Zaman keçdikcə gənc nəsildə vətənpərvərlik hissləri daha da güclənir. Bildiyimiz kimi, vaxtilə torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altında olub, bir milyondan çox



soydaşımız isə qaçqın və məcburi köçkün vəziyyətində yaşayıb. Bu fakt Azərbaycan gəncliyini daha ayıq-sayıq olmağa, istər informasiya sahəsində, istərsə də cəbhə xəttində ölkənin müdafiəsi uğrunda əlindən gələni etməyə sövq edib. Dövlət gənclər siyasəti gənclərin bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, təhlükəsizliyinin vacib şərtlərindəndir".

**Ölkənin gələcəyini təmin edən dəyər**

C.Məmmədov qeyd edib ki, bugünkü qlobal dünyada vətənpərvərlik bəzən yanlış anlaşılır: "Bəzi insanlar onu millətçiliklə qarışdırır və bu da öz növbəsində qarşılıqlı anlaşılmazlıq və konfliktlərə səbəb olur. Lakin vətənpərvərlik başqa xalqlara qarşı nifrət və düşmənçilik deyil, öz xalqının, mədəniyyətinin və tarixi irsinin qorunması və inkişafıdır. Bu, müxtəlif xalqlar arasında qarşılıqlı hörmətin və anlaşmanın əsasını qoyur.

Vətənpərvərlik eyni zamanda hər bir insanın öz ölkəsinə xidmətetmə, onun inkişafına töhfə vermək istəyini əks etdirir. Müstəqil dövlətlər, öz sərhədləri içində sülh və əmin-amanlıq yaradaraq, beynəlxalq münasibətlərdə həmrəyliyin təşviqinə dəstək verirlər. Bu cür vətənpərvərlik, həm daxili, həm də xarici münasibətləri inkişaf etdirən, ölkənin gələcəyini təmin edən bir dəyərdir".

**Dövlət siyasətinin mühüm tərkib hissəsi...**

Deputatın sözlərinə görə, ölkəmizin gələcəyi olan gənclərimizin milli mənlik şüurunun inkişafı və vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi təkcə təhsil və mədəniyyət sahəsinə aid deyil, həm də dövlətimizin gələcəyi, birliyimiz və mənəvi təhlükəsizliyimizlə birbaşa bağlıdır: "Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Dünya sürətlə dəyişir. Qloballaşma, sosial media və texnologiya gənclərin düşüncəsini, dəyərlərini formalaşdırır. Belə bir dövrdə xalqımızın kimliyini qorumaq, vətən sevgisini və mənəvi köklərə bağlılığı saxlamaq hər zamankından daha vacibdir. Son illərdə dövlətimiz və cəmiyyətimiz bu istiqamətdə ciddi addımlar atıb. Təhsil sistemində milli-mənəvi dəyərlərin təbliği, Qarabağ Zəfərinin dərslərdə və ictimai tədbirlərdə gənclərə nümunə kimi təqdim olunması, könüllülük hərəkatının genişlənməsi, gənclər üçün yaradılan inkişaf və karyera mərkəzləri bu işin tərkib hissəsidir. Bu fəaliyyətlər nəticəsində gənclər arasında vətənə sevgi, dövlətçiliyə sədaqət və qürur hissi daha da möhkəmlənib".

# Vətən torpağının qəhrəmanı

## Sadiq Rəhimovun xatirəsi ehtiramla anılır

Sadiq Rəhimov 1997-ci ilin 10 dekabr tarixində Lerik rayonunun Veri Əliabadı kəndində dünyaya gəldi. Onun doğulduğu ailə, sadəliyi və zəhmətkeşliyi ilə seçilirdi. Sadiqin atası Nadir Yaqub oğlu Rəhimov, zəhmətsevərliyi, sadəliyi, hamının imdadına çatmağı bacaran və hər zaman ətrafındakı insanlara dayaq olan bir insan idi. O, ailəsinin rifahı üçün əlindən gələni edir, övladlarına gözəl tərbiyə verməyə çalışırdı. Sadiqin uşaqlıq illəri, atasının qayğısı və doğma kəndinin səfası ilə yoğrulmuşdu. Sadiq, atasının ona verdiyi dəyərləri özündə cəmləşdirərək vətənpərvər, mərhəmətli və insansevər biri kimi yetişdi. Veri Əliabadı kənd orta məktəbində təhsil alan Sadiq, dərslərində çalışqanlığı və yoldaşları ilə münasibətlərində səmimiliyi ilə seçilirdi. Orta məktəbi bitirdikdən sonra Astara Pedaqoji Kollecinə daxil oldu və fiziki tərbiyə müəllimi ixtisasına yiyələndi. Bu dövr, onun gələcək həyatına hazırlıq mərhələsi oldu. Hərbi xidməti də başa vurduqdan sonra Sadiqin əsl missiyası Vətənə xidmət etmək idi.



### Döyüş meydanında qəhrəmanlıq eposu...

2020-ci ilin sentyabrında başlanan Qarabağ müharibəsi Sadiqin həyatında yeni bir dönüm nöqtəsi oldu. Vətən torpaqlarının azadlığı uğrunda döyüşmək üçün könüllü olaraq Lerik Rayon Hərbi Komissarlığına müraciət edən Sadiq, döyüş bölgəsinə yola düşdü. Bu qanlı savaş, Azərbaycan xalqının qəhrəmanlıq ruhunu bir daha dünyaya nümayiş etdirdi. Bu müharibədə Azərbaycanın müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qüdrəti, əsgərlərimizin şücaəti, xalqımızın birliyi və dəmir iradəsi birləşərək zəfərə aparan yolu açdı.

Füzuli və Xocavənd istiqamətində gedən ağır döyüşlər, cəsarət və qorxmazlıq sınağı oldu. Sadiq həmin dəhşətli günlərdə özünü əsl qəhrəman kimi göstərdi. Güllə yağışı altında, top atəşlərinin uğultusu içində, o, irəli atıldı, düşmənə qarşı amansızcasına vuruşdu. Onun gözlərindəki qətiyyət, ürəyindəki Vətən sevgisi, ruhundakı azadlıq arzusu onu yenilməz edirdi. Hər atdığı addım, hər açdığı atəş, düşmənin sıralarına sarsıdan bir zərbə idi.





Xocavəndin dağları qan-qadaya boğulmuşdu. Döyüşlər ən amansız anlarını yaşayırdı. Sadiq, ölümün gözünə dik baxaraq, döyüş yoldaşlarına dayaq olmuş, onları ruhlandırmışdı. O, düşmənə qarşı qəzəblə vuruşurdu. Onun əlindən çıxan hər güllə, düşmənin daha bir əsgərini məhv edir, onun ruhunu sarsırdı. O, özünü unudaraq, Vətənin azadlığı üçün vuruşurdu...

3 noyabr 2020-ci il... Xocavənd uğrunda gedən şiddətli döyüşlər... O gün Sadiqin şücaətinin ən yüksək zirvəsi oldu. O, döyüş yoldaşları ilə birlikdə düşmənə qarşı sonadək vuruşdu. Düşmən amansız idi, onların sayı çox idi, lakin Sadiqin ruhu daha güclü idi. O, Vətən torpağı uğrunda canından keçdi, qəhrəmancasına şəhid oldu. Onun adı Azərbaycanın şanlı tarixinin səhifələrinə şəhid adı ilə yazıldı. Onun qəhrəmanlığı əbədi yaşayacaq bir dastan oldu. Bu qəhrəmanlıq dastanında Ali Baş Komandanın qətiyyətli rəhbərliyi, ordumuzun peşəkarlığı və xalqımızın qələbənin əsas amilləri oldu.

Sadiqin şəhid olması xalqımızı dərindən sarsıtdı. Onun Vətən sevgisi, qəhrəmanlığı və döyüş bacarığı hər bir azərbaycanlının qəlbində özünə yer tapdı. Onun nəşi doğulduğu Veri Əliabadı kəndinə gətirildi və 6 noyabr tarixində kənd qəbiristanlığında dəfn olundu. Sadiqin adı, qəhrəmanlığı və Vətənə olan sevgisi heç vaxt unudulmur.

Azərbaycan dövləti Sadiqin qəhrəmanlığını yüksək qiymətləndirdi. Prezident İlham Əliyevin sərəncamları ilə Sadiq Rəhimov ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi. Bu mükafatlar, onun qəhrəmanlığının rəmzi olmaqla yanaşı, gənc nəsillərə vətənpərvərlik örnəyi olaraq qalacaqdır. Sadiqin xatirəsi, onun adını daşıyan məktəblərdə, küçələrdə və abidələrdə əbədiləşdirilir.

Bu gün Sadiq Rəhimovun anadan olmasının 28-ci ildönümündə, biz onun xatirəsini ehtiramla yad edirik. O, Vətən uğrunda canından keçən qəhrəmanlarımızdan biridir. Onun həyatı, qəhrəmanlığı və Vətən sevgisi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

### Xalqın yaddaşında...

Sadiq kimi qəhrəmanların sayəsində Azərbaycanın şanlı qələbəsi təmin olundu və Qarabağımız azad edildi. Şəhidlərimizin ruhu şad olsun! Biz Sadiqin adını və xatirəsini hər zaman qəlbimizdə yaşadacağıq! Eyni zamanda, Sadiqi böyüdüb Vətənə layiq bir övlad kimi yetişdirən, zəhmətkeş, sadə və hamının imdadına çatan atası Nadir Rəhimovun xatirəsini də ehtiramla anırıq. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik.

*Elçin Rəhimov*

# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin "Kilimancaronun qarı" hekayəsi haqqında

*əvvəli ötən saylarımızda*

Səhər açılır, göydə təyyarə uğultusu eşidilir. Harrinin köhnə dostu Komton əynində biçimsiz şalvar, tvid pencək, başında qəhvəyi fetr şlyapa onun çadırına sarı yeriyir. Nökərlər onu dostunun təyyarəsinə mindirirlər, dəmir qanadlı quş yerdən son dəfə təkan alıb havaya qalxır: "Sonra təyyarə yuxarı millənib, deyəsən, gündoğana tərəf istiqamət götürdü və qəfildən araya zülmət qaranlıq çökdü, şəlalə içindən keçirmiş kimi qapqara buludların arasına, dəhşətli leysana düşdülər, yağmurdan çıxanda isə Komti başını geri çevirib gülümsədi, əlini qabağa uzatdı və orada, irəlidə Harri göz önünə pərdə çəkərək bütün dünyanı görünməz edən, günəşin şəfəqləri altında bəyazlığı göz deşən ağlasığmaz dərəcədə parlaq, başı göylərə dirənmiş kvadratşəkilli nəhəng Kilimancaro zirvəsini gördü. Onda başa düşdü ki, bu yer onun üz tutub getdiyi həmin yerdir".

Məhz həmin anda goreşən qaranlıqda ulamağını kəsib adam səsinə, hönkürtüyə bənzər qəribə səslər çıxarır. Qadın kaftarın vahiməli səsinə ayılıb Harrinin ruhsuz bədənini haraylayır...

***

Əsəri dilimizə çevirmiş yazıçı-tərcüməçi Mahir N. Qarayev Heminqueyin yaradıcılığından danışanda "Kilimancaronun qarı" hekayəsi haqqında belə yazır:

"Bu əsər yaradıcı insan ömrünün yaşanmamış anları, günləri haqqında elegiya, reallaşdırılmamış istedadın faciəsindən doğan həzin, kədərli bir hekayətdir. Əsərin baş qəhrəmanı - bütün həyatı boyu istedadını zərrəzərrə, hissə-hissə doğrayıb maddiyyata satan Harri ömrünün son saatını öz mənəvi dünyasının sərt həqiqətlər, kəskin ittihamlar girdabında keçirməyə məruz qalır; özündən iyrənə-iyrənə yaşadığı ona yad bir cəmiyyətdə bütün vaxtını müşahidə və əyləncələrə xərcləyən, özünün başlıca missiyasını yerinə yetirməyi isə günü günə sata-sata həmişə sonraya, hansısa müəmmalı gələcəyə saxlayan və bütün həyatı ərzində topladığı zəngin materialı hamıdan daha yaxşı yazacağı ümidiylə əslində özünü aldadan Böyük Yazıçı axırda yazmağın daşını biryolluq atır. Həqiqətin yalanla, yalanın həqiqətlə çulğaşdığı bütöv bir ömrə onun son saatının səmimiyyət zirvəsindən baxan Harri əldən çıxmış, itirilmiş, unudulmuş, bir kənarda yaşanmamış qalan tam başqa bir həyatın varlığını aşkar etsə də, artıq gecdir...

Məhv olmuş daxili aləmin, iflasa uğramış düşüncələrin xarabalığında gecələr kaftar zingiltisi, goreşən ulartısı ilə baş-başa qalıb iztirab çəkmək və özündən sonra heç nə qoymadan dünyanı bu iztirabın ümidsizliyi içində tərk etmək Harrinin labüd sonluğu, qaçılmaz aqibətidir.

Ömrün son saatında Harri təskinliyi illüziyada tapır. Lakin onun bütöv bir ömür silsiləsini bir abzasa sığışdırmaq ehtirası, əslində, elə həm də Heminqueyin öz yaradıcılıq metodunun ağlasığmaz görünən cəhdlərindən biridir.

Harridə Heminqueyə xas bir çox cəhəti aşkar etmək mümkündür; böyük ustalıqla yaradılmasına və ümumiləşdirilməsinə baxmayaraq bu obraz hər halda (və başqalarından daha çox) məhz Heminqueyin özünü xatırladır.

Başqaları sırasında, heç şübhəsiz, ilk növbədə Heminqueyin dostu, Amerikanın digər böyük yazıçısı Skot Fiscerald və onun kədərli taleyi göz önünə gəlir. Əyalətdən çıxmış Fisceral öz parlaq istedadını kommersiya dərgilərinə satmaqla qısa müddətə varlanıb kübar cəmiyyətə ayaq açmış, hətta öz zümrəsindən yox, varlı təbəqədən olan qadınla evlənmişdi və bu izdivacın yaxşı qurtarmayacağını hiss etsə də, yenə könüllü əsarətə boyun əymişdi. Əsərdə Fisceraldın bilavasitə adı çəkilən abzas var; həmin abzasda Heminquey dostunu zənginlərin pərəstişkarı kimi təqdim edərək Harrinin vasitəsilə onu ələ salır, həyatın zərbələrinə duruş gətirə bilməyən belə adamlardan zəhləsi getdiyini bildirir. Bu isə hekayənin yazıldığı ildə ağır mənəvi iztirablar keçirən, bədbinliyə qapılmış Fisceralda ağır zərbə olmuşdu.

*davamı növbəti sayımızda*



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Hidayətin yaradıcılığı haqqında elmi məqalə LIBRARU.RU-da

Sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndəsi, şair, dramaturq, ədəbiyyatşünas və ictimai-siyasi xadim Hidayətin yaradıcı fəaliyyətinə həsr etdiyi, Qırğızıstan Milli Elmlər Akademiyasının "Xəbərlər"ində çap olunan "Qeyri-səlis məntiq kəhkəşanında kamilləşən şəxsiyyətin ucalığı" adlı elmi məqaləsi LIBRARU.RU elektron elmi bazasında yerləşdirilib. Məqalədə Hidayətin dramaturgiyasının ötən əsrin ikinci yarısı və yaşadığımız əsrin əvvəllərində milli teatr hərəkatının genişlənməsində özünəməxsus rol oynadığı, Azərbaycan ədəbiyyatının, teatr sənətinin və ümumən mədəniyyətinin formalaşmasında müstəsna əhəmiyyəti vurğulanır. Məqalə müəllifi Hidayətin pyeslərində qaldırılan məsələlərin müasir dramaturgiya və teatr kontekstində əhəmiyyətini, onun qeyri-səlis məntiq nəzəriyyəsinin inkişaf trayektoriyalarında kamilləşən şəxsiyyətinin böyüklüyünü milli bədii irsin bir hissəsi kimi təqdim edir.



# Təbiətin nəfəsi...

## Dağlar dünya turizminin 15-20 faizini əhatə edir

Onlar yalnız landşaftın gözəlliyi ilə deyil, həm də ekosistemin mühüm komponenti olaraq təbiətin tarazlığını qoruyan böyük quruluşlardır. Dağlar təbiətin zənginliklərini özündə cəmləşdirən, həyat üçün vacib olan təbii resursların qaynağıdır. Əzəməti sadəcə hündürlüyü və möhtəşəmliyi ilə bağlı deyil. Əslində dağlar yer kürəsinin dinamik həyat dövrünün bir hissəsidir.

Dekabrın 11-i Beynəlxalq Dağlar Günüdür. Bu təqvim günü BMT-nin Baş Assambleyasının təşəbbüsünə əsasən 2003-cü ildən başlayaraq hər il qeyd olunur. Hər il fərqli deviz altında qeyd edilən Beynəlxalq Dağlar Gününün builki mövzusu "Buzlaqlar dağlarda və onun hüdudlarından kənarda su, qida və yaşayış üçün vacibdir" adlanır. Dünyanın quru səthinin təxminən dörddə birini əhatə edən dağlar dünya əhalisinin 15 faizinə ev sahibliyi edir. Yeri gəlmişkən, dağ turizmi dünya turizminin 15-20 faizini əhatə edir.

**Dünyanın ən hündür 3 dağı...**

Dağlar yalnız təbiətin böyük gücünü əks etdirməkdən ibarət deyil, həm də insanın öz sərhədlərini aşmaq, təbiətə meydan oxumaq istəyini simvollaşdırır. Dünyanın ən hündür dağları siyahısında ilk yeri Everest dağı tutur. Everest dağı Nepalda, Çinlə sərhəddə yerləşir. Everest dağının rəsmi hündürlüyü dəniz səviyyəsindən 8,848 metr (29,029 fut) yüksəkdir. Everest ilk dəfə nepallı Sherpa Tenzing Norgay və Yeni Zelandiya alpinistləri Edmond Hillary tərəfindən 1953-cü ildə Britaniya ekspedisiyası ilə yekunlaşdırılıb.

**K2 (8,611 metr)**

K2 dağı dünyanın ikinci ən hündür dağıdır. K2 Everestdən sonra ən hündürdür və Pakistanda yerləşir. K2 dağı Pakistanın şimalında Himalay dağlarının Qarakoram silsiləsində yerləşir. Karakoram silsiləsinin ikinci zirvəsi Pakistanın K2 adlanan ən yüksək zirvəsidir.

Zirvə qalxma çətinliyinə görə "Vəhşi dağ"dır və səkkiz min zirvə arasında ikinci ən yüksək ölüm nisbətidir. K2-nin fəthi 31 iyul 1954-cü ildə "Ardito Desiofinally"nin başçılıq etdiyi italyan ekspedisiya komandası tərəfindən tamamlanıb.

**Kançencanqa**

Dünyanın ən hündür üçüncü dağı Nepalın şərqində Hindistan-Nepal sərhədində yerləşir. Kançencanqa dağının hündürlüyü 8,586 metrdir (28,169 fut). Kançencanqa Hindistanın ən yüksək zirvəsidir, eyni zamanda Himalay dağlarının ətraf hissəsinin adıdır və 5 zirvədən ibarət olduğu üçün "Beş Qar Xəzinəsi" mənasını verir.

Co Braun və Corc Bandın rəhbərlik etdiyi Britaniya ekspedisiyası komandası ilk dəfə 25 may 1955-ci ildə Kançencanqa zirvəsinə qalxıb.

**Mikroplastiklərə, hətta Everestin zirvəsində də rast gəlinir**

Son illərdə dağların qorunması istiqamətində müxtəlif beynəlxalq təşəbbüslər irəli sürülüb. BMT-nin dağlar üzrə proqramı dağ ekosistemlərinin qorunması və davamlı idarə edilməsi sahəsində bir sıra layihələr həyata keçirir.

Ətraf mühitin pisləşməsi dağlarda quraqlığa, sürüşmələrə və digər təbii fəlakətlərə, dağlıq rayonlarda siyasi vəziyyətin gərginləşməsi isə lokal müharibələrə, terrorizmin yayılmasına, qaçqınların sayının artmasına, aclıq və xəstəliklərin yaranmasına səbəb olur. Dağ ekosistemləri də çirklənmə təhlükəsi altındadır. Mikroplastiklərə, hətta Everestin zirvəsində də rast gəlinir. Dağların iqlim dəyişikliyi, eləcə də istismar və çirklənmə təhlükəsi altında olması insanlar və planet üçün riskləri artırır. Qlobal iqlim dəyişikliyi davam etdikcə dağ buzlaqları əriyərək aşağı axarda şirin su ehtiyatlarına təsir edir. Eroziya və çirklənmə aşağı axınla axan suyun keyfiyyətinə və torpağın məhsuldarlığına xələl gətirir.

Bütün bunlar dağlıq rayonların unikal təbiət və insan potensialının itirilməsinə gətirib çıxarır. Ona görə də dağları qorumaq üçün dünya ictimaiyyətinin diqqətini bu problemlərə cəlb etmək çox vacibdir. Həmin problem hamımıza təsir edir. Mənfi vərdişlərimizin ətraf mühitə təsirini bilməli, təbii sərvətlərin qayğısına qalmalıyıq.

***Yeganə BAYRAMOVA***

**Uşaqların müdafiəsində UNİCEF missiyası...**

# Onların ümidi qırılmasın!

Uşaq hüquqlarının pozulması bu gün aktual mövzulardan biridir. Uşaq hüquqları insan hüquqlarının tərkib hissəsi olsa da, bu hüquqların xüsusi diqqətə və müdafiəyə ehtiyacı var. Təəssüf ki, dünya üzrə hələ də milyonlarla uşaq müxtəlif səbəblərdən ciddi hüquq pozuntularına məruz qalır. Günümüzdə uşaq hüquqlarının qorunması bir çox ölkənin və beynəlxalq təşkilatların fəaliyyət sahəsidir.

## Müharibə uşaqları...

Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmaq olmaz. Müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır. Uşaq Hüquqları Konvensiyasının 25-ci maddəsinə əsasən, dağıdıcı müharibələr səbəbindən valideyn himayəsindən məhrum olmuş, baxılmaq, müdafiə və ya müalicə edilmək məqsədi ilə dövlət tərəfindən qəyyumluğa, himayəçiliyə verilmiş uşaqların qəyyumluğunun və himayəçiliyin mütəmadi yoxlanılması lazımdır. Konvensiyanın 37-ci maddəsində isə qeyd edilir ki "Heç bir uşaq işgəncələrə, amansız rəftara və cəzaya, qanunsuz həbsə və ya azadlıqdan məhrum edilmə cəzalarına məruz qalmamalıdır. Uşaqlara qarşı pis rəftar hallarına heç vaxt haqq qazandırmaq olmaz, yalnız belə halların baş verdiyi və ya baş verə biləcəyi zaman onların qarşısı alınmalıdır".




## Azərbaycan - UNİCEF münasibətləri

Azərbaycan Respublikası 21 iyul 1992-ci il tarixli qanunla BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasını ratifikasiya edib. 1993-cü ildə Azərbaycan Respublikası "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında" 1990-cı il 30 sentyabr tarixli Ümumdünya Bəyannaməsinə qoşulub. UNİCEF Azərbaycanda fəaliyyətinə 1993-cü ilin oktyabr ayında başlayıb.

## Uşaq hüquqlarını qoruyan təşkilat

Yeri gəlmişkən, bu gün BMT Uşaq Fondu - UNİCEF-in yaranmasından 79 il ötür. Fondun əsası 1946-cı il dekabrın 11-də qoyulub. Təşkilat ilk dövrlərdə Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu adlandırılıb. 1953-cü ilin aprelində BMT Baş Məclisi fondun fəaliyyətini müddətsiz elan edib və adını müasir formaya salıb.

Təşkilat 1959-cu ildə "Uşaq hüquqları" bəyannaməsini qəbul edib. 1965-ci ildə Uşaq Fondunun son dərəcə məhsuldar fəaliyyəti və yubileyi onun dünya Nobel mükafatına layiq görülməsi ilə nəticələnib. 1976-cı il dekabrın 21-də isə BMT 1979-cu ili Uşaq ili, habelə UNİCEF-i BMT sisteminin uşaq və körpələrlə bağlı başlıca orqanı elan edib. BMT Baş Məclisi 1989-cu ilin dekabrında "Ümumdünya Uşaq hüquqları haqqında" Konvensiyanı qəbul və təsdiq edib.

UNİCEF-in fəaliyyəti yalnız inkişaf etməkdə olan ölkələrlə məhdudlaşmır. İqtisadi və sosial cəhətdən inkişaf etmiş ölkələrdə də uşaqların hüquqlarının qorunmasına diqqət yetirilir. Təşkilat uşaqların həm fiziki, həm də psixoloji inkişaflarını təmin etmək, onların hüquqlarının pozulmasına qarşı çıxmaq və hər hansı bir ayrı-seçkiliyə qarşı mübarizə aparmaq məqsədini güdür.

## Çətinliklər və gələcək perspektivlər

UNİCEF-in uşaq hüquqları sahəsindəki fəaliyyətinə baxmayaraq, hələ də bir çox çətinliklər mövcuddur. Hər il milyonlarla uşaq münaqişə zonalarında həyatını itirir, aclıq və xəstəliklərdən əziyyət çəkir, təhsil və səhiyyə xidmətlərindən məhrum qalır. İnkişaf etməkdə olan ölkələrdə uşaqların hüquqlarının qorunması üçün hələ çox iş görülməlidir.

Gələcəkdə UNİCEF-in fəaliyyəti, qlobal miqyasda uşaq hüquqlarının daha da gücləndirilməsi üçün daha çox beynəlxalq əməkdaşlıq, təhsil və maarifləndirmə işləri tələb edir. Həmçinin, dövlətlər və beynəlxalq təşkilatlar arasında əlaqələrin möhkəmləndirilməsi, uşaq hüquqlarının qorunmasında daha böyük uğurlar əldə etməyə imkan verəcək. Lakin bəşəriyyətin gələcəyini formalaşdıran uşaq hüquqlarının müdafiəsi yalnız beynəlxalq təşkilatların deyil, bütün dünyanın və hər bir fərdin məsuliyyətidir...

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Azercell Kinon tətbiqini süni intellektlə gücləndirib




*Lider mobil operator Kinon tətbiqində süni intellekt əsaslı axtarış və tövsiyə funksiyalarını istifadəyə verib*

Rəqəmsal məhsullar portfelini ən son texnologiyalarla zənginləşdirməyə davam edən Azercell ölkə bazarında daha bir ilkə imza atıb. Şirkət intuitiv, müasir və yüksək keyfiyyətli məzmun izləmə mühiti yaradaraq Kinon-u Azərbaycanın aparıcı rəqəmsal həllərindən birinə çevirir.

Lider mobil operator Kinon tətbiqini süni intellekt əsaslı həllərlə təchiz edərək yeni nəsil axtarış və fərdiləşdirilmiş tövsiyə funksiyalarını istifadəyə verib. Azərbaycanda ilk dəfə tətbiq olunan bu sistem istifadəçilərə filmləri, serialları və müxtəlif proqramları gündəlik danışıq dilində verilən sorğular vasitəsilə tapmağa imkan yaradır. "Axşam üçün nəsə gülməli", "istirahət üçün serial", "gözəl mənzərələr olan film" kimi ifadələr süni intellekt tərəfindən tam şəkildə başa düşülür və sistem istifadəçi davranışlarını analiz edərək fərdiləşdirilmiş nəticələr təqdim edir. Yeni həll tətbiq daxilində rahat naviqasiya, fərdi məzmun axtarışı və TV təcrübəsini təmin edir.

Qeyd edək ki, "Kinon" tətbiqi istifadəçilərə eyni anda 260-dan çox yerli və xarici TV kanalını izləmək imkanı yaradır. Bundan əlavə, "Premier", "Viju" və "Wink" kimi beynəlxalq onlayn kinoteatrlar da bir platformada birləşdirilib.

Tətbiqi yükləmək üçün: https://bit.ly/Kinon

Kinon-un süni intellekt imkanları ilə daha ağıllı, daha sürətli və tam olaraq seçimlərinizə uyğunlaşdırılmış yeni nəsil TV təcrübəsini kəşf edin!

Ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/digital-solutions/kinon-plus.html

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2514
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova